HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 38 (3454) Cümə axşamı / 29 sentyabr - 5 noyabr 2022-ci il Qiyməti 40 qəpik

Azərbaycan bankları sanksiyalarla üzləşə bilər

"Mir" ödəniş sisteminin kartları yeni çətinliklərlə üzləşib. Belə ki, ABŞ və Avropa İttifaqı Rusiyanın sanksiyalardan yayınmaq üçün işə saldığı "Mir" ödəniş sisteminin digər ölkələrdə fəaliyyətini böyük ölçüdə dayandırmağa müvəffəq olmaqdadır. ABŞ Maliyyə Nazirliyinin saytında "Mir"lə əməkdaşlıq edən ölkələrə xəbərdarlıq yerləşdirilib. Avropa İttifaqının baş diplomatı Jozep Borrelin şəxsi nümayəndəsi Peter Stano isə Aİ-nin də "Mir"dən istifadəyə görə digər ölkələrin banklarına məhdudiyyət tətbiq olunacağını istisna etməyib. Onun sözlərinə görə, Avropa İttifaqında artıq bu məsələ müzakirə olunur.

Bu xəbərdarlıqdan sonra sentyabrın 19-da Türkiyədə "Mir" kartlarına xidmət göstərən iki ən böyük bank - Türkiye İş Bankası və DenizBank onlara xidməti dayandırıb. Ziraat Bankası, HalkBank və VakıfBank isə müəyyən məhdudiyyətlər tətbiq etməyə başlayıb. Sentyabrın 21-də isə Ermənistanda banklar tərəfindən "Mir" ödəniş sistemi kartlarının qəbulu dayandırılıb. Ermənistan Mərkəzi Bankı bununla bağlı bəyan edib ki, Ermənistanın kommersiya bankları sanksiyalarla bağlı "Mir" kartlarına xidmət göstərib-göstərməmək qərarını özləri verirlər.

Sentyabrın 22-də "Mir" kartlarına xidmət daha iki ölkədə - Qazaxıstan və Vyetnamda dayandırılıb. Sentybarın 23-də isə Özbəkistanda Rusiya kartlarının qəbuluna son qoyulub. Özbəkistan milli kart sistemi olan "Uzkard"ın saytında yerləşdirilən məlumatda bunun texniki məsələlərin həlli ilə bağlı olduğu qeyd edilsə də, kartlara xidmətin nə zaman davam edəcəyinə dair heç bir məlumat verilmir.

Bəs, görəsən, Azərbaycanda banklar bu ödəniş sistemindən istifadə edirmi? Azərbaycanda bu sistem vasitəsilə nə qədər əməliyyat yerinə yetirilir? Ümumiyyətlə, "Mir" kartlarından istifadə edən yerli banklara qarşı sanksiyaların tətbiqi nə ilə nəticələnə bilər?

■ Mövzunu hafta.az-a şərh edən Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli bildirib ki, Azərbaycanın "Mir" ödəniş sistemindən istifadə edib-etmədiyinə dair rəsmi məlumat yoxdur:

"Amma Azərbaycanın Rusiya ilə geniş iqtisadi əlaqələri var. Bildiyiniz kimi, sanksiyalar çərçivəsində Rusiyanın bank sistemi SWİT-dən ayrıldı. Bundan sonra Rusiya alternativ "Mir" ödəniş sistemini yaratdı. Moskva alternativ bank sistemi yaratmaqla özünə müttəfiq ölkələrlə "Mir"sistemi vasitəsilə ödənişlər həyata keçirirdi.

Qərb isə Rusiyanın bu oyununa gedən ölkələrə təzyiq edib ki, Moskvaya yönəlik sanksiyaların daha təsirli olması üçün onlar "Mir" ödəniş sistemindən çıxsın. Əks təqdirdə, Rusiyaya yönəlik sanksiyalar "Mir"dən istifadə edən digər ölkələrə də şamil edilə bilər.

Bunun nəticəsi olaraq əvvəl Rusiyanın oyununa gedən ölkələr indi "Mir" ödəniş sistemindən imtina etməyə başlayıblar. Belə vəziyyət isə Rusiyanın bütünlüklə bloklanması deməkdir. Şimal ölkəsinin bank sistemi bloklanacaq. Rusiya heç bir bank sistemindən nə pul qəbul edə, nə də göndərə bilməyəcək. Amma Azərbaycanın "Mir" ödəniş sistemindən istifadə edib-etmədiyinə dair rəsmi məlumat yoxdur. Ola bilsin ki, bu məlumatı ictimailəşdirməyə lüzum görməyiblər. Bildiyim qədər bu sistemə rəsmi qoşulma yoxdur. Eyni zamanda, Azərbaycan Rusiya ilə aktiv ticarət əməliyyatları aparır. Yəqin ki, bunların arasında "Mir"lə mübadilə də var. Təbii ki, Azərbaycanla Rusiya arasında bank əlaqələri kəsilərsə, bu, ölkələrimiz arasında idxal-ixrac əməliyyatları, mal mübadiləsi prosesini bir qədər çətinləşdirəcək. Hesab edirəm ki, ölkələrimiz siyasi-iqtisadi cəhətdən çox yaxın olduğundan digər mexaniki vasitələrdən istifadə etməklə problemi müəyyən mənada aradan qaldıra biləcəklər".

> *Azərbaycanın "Mir" ödəniş sistemindən istifadə edib-etmədiyinə dair rəsmi məlumat yoxdur*

> *Əgər Türkiyə kimi qüdrətli dövlət bu məsələdən imtina etdisə, vəziyyətə diqqətli yanaşmaq lazımdır*

■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov deyib ki, Azərbaycan bankları "Mir" ödəniş sistemindən istifadə etdiyi təqdirdə ciddi sanksiyalarla üzləşə bilərlər:

"Düzdür, bu sistemdən istifadə edib-etmədiyimizə dair konkret məlumat mövcud deyil. Qazaxıstan, Vyetnam, Özbəkistan, Türkiyə kimi ölkələr bu kartlardan istifadəni dayandırıb. Hamı da başa düşür ki, bu addım sanksiyalara görə atılıb. Əgər Türkiyə kimi qüdrətli dövlət bu məsələdən imtina etdisə, vəziyyətə diqqətli yanaşmaq lazımdır. Ona görə də düşünürəm, əgər bizim banklar indiyədək bu sistemdən istifadə edirdilərsə, bundan sonra etməyəcəklər".

Yeri gəlmişkən...

Kreml Türkiyənin dövlət banklarının Rusiyanın "Mir" ödəniş sistemindən istifadədən imtina etmək qərarını ABŞ-ın ölkəyə misli görünməmiş təzyiqi və ikinci dərəcəli sanksiyalar təhlükəsi səbəbindən məcburi hesab edir. Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

"Aydındır ki, banklar və iqtisadi tərəfdaşlar Amerika Birləşmiş Ştatlarının çox güclü təzyiqi altındadırlar, onları bank sistemi üçün ikinci dərəcəli sanksiyalarla hədələyirlər. Anlaşılandır ki, bu qərar misli görünməmiş təzyiq altında qəbul edilib. Vəziyyət mürəkkəbdir və əlbəttə ki, biz bu təzyiqə qarşı birgə yollar axtarmalıyıq ki, ticarət-iqtisadi əməkdaşlığımıza xələl gəlməsin və hər il Türkiyəyə gedən milyonlarla rusiyalı turistimizi rahat şəraitdən məhrum olunmasın", - Peskov Kremlin Rusiyanın "Mir" ödəniş sisteminin kartlarının qəbulunu dayandıran türk bankları ilə bağlı vəziyyəti necə qiymətləndirdiyini və Rusiya Prezidenti Vladimir Putinin bu məsələni Türkiyə Prezidenti ilə müzakirə edib-etməyəcəyi sualına cavabında bildirib.

Qeyd edək ki, "Bloomberg" adı açıqlanmayan yüksək rütbəli türkiyəli məmura istinadən xəbər yayıb ki, Türkiyənin dövlət bankları Halkbank, Ziraat Bank və VakıfBank "Mir" sistemindən istifadəni dayandırmaq qərarına gəliblər.

MÜSAHİB

"Əmək pensiyaları haqqında" Qanun dəyişdirilir

Musa Quliyev,
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili

Gələn ildən Azərbaycanda bütün növ pensiyalar artırılacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli Sərəncamı ilə qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının (dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslər və s.) pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə dair təkliflər Milli Məclisdə müzakirəyə çıxarılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əmək pensiyaları haqqında" Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdirilərək artırılması mexanizmi tətbiq ediləcək.

Sosial evlər layihəsini stimullaşdırmaqdan ötrü hökümət tərəfindən müəyyən addımlartılmalıdır

▸▸ Səh. 6

MÜSAHİB

Sevinc Alızadə,
"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

■ Qarabağın, ətraf rayonların azad olunması o ağlayan insanlarımıza bir təsəllidir

■ Bu müraciətlər, əsasən, işlə təmin olunma, reablitasiya tədbirləri, təhsillə bağlıdır

■ İki il ərzində məmurların münasibətində dəyişikliyin müsbət istiqamətdə getdiyini söyləmək olar

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...

Ruslar ölkədən qaçırlar

GÜNÜN SİTATI

"Burada əsas məqam konkret vaxt çərçivəsində sülh gündəliyi üzrə səylərin davam etdirilməsidir"

Hikmət Hacıyev,
Azərbaycan Respublikası Prezidentinin köməkçisi

KARİKATURA

Tolstoyun eşidilməyən çağırışı

Ərdoğan seçkilərdə qalib gələrsə...

Rauf Məmmədov,
politoloq

ABŞ Ermənistanı və Gürcüstanı Rusiya və Türkiyənin əlindən alaraq, onları öz nəzarətinə keçirmək istəyir.

▸▸ Səh. 5

STATİSTİKA

■ Azərbaycanda təhsil alan əcnəbilərin son 5 tədris ili üzrə sayı açıqlanıb.

2017-2018-ci tədris ilində 5410, 2018-2019-cu tədris ilində 6427, 2019-2020-ci tədris ilində 6615, 2020-2021-ci tədris ilində 6449 nəfər olub.

Ötən 2021-2022-ci tədris ilində Azərbaycan ali və orta ixtisas təhsili müəssisələrində ilk dəfə 102 ölkədən 7332 nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alıb.

▸▸ Səh. 3

Azərbaycanı Zəfərə aparan Tarix

XƏBƏR LENTİ

Prezidentin köməkçisi Armen Qriqoryanla müzakirə olunan məsələləri açıqlayıb

"Biz bu görüşün təşkil edilməsinə və regionda davamlı sülhün təmin olunması istiqamətində səylərinə görə ABŞ tərəfinə təşəkkür edirik".

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 27-də Vaşinqtonda, Ağ Evdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Cek Sallivanın təşəbbüsü ilə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşdən sonra mətbuata açıqlamasında deyib. O diqqətə çatdırıb ki, görüşün nəticələri haqda Cek Sallivan tərəfindən razılaşdırılmış qaydada məlumat verilib. "Burada əsas məqam konkret vaxt çərçivəsində sülh gündəliyi üzrə səylərin davam etdirilməsidir. Görüşdə sülh müqaviləsi üzrə danışıqlar, sərhədlərin delimitasiyası, nəqliyyat xətlərinin açılması, o cümlədən humanitar gündəliyin tərkib hissəsi olan minalar və itkin düşmüş şəxslərlə bağlı məsələlər müzakirə olunub", - Hikmət Hacıyev qeyd edib.

Azərbaycanın Baş Qərargah rəisi Tbilisidə şəhid ailələri ilə görüşüb

Gürcüstana rəsmi səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev sentyabrın 28-də Azərbaycan səfirliyində olub.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Səfir Faiq Quliyev Azərbaycan Ordusunun Baş Qərargah rəisinə səfirliyin fəaliyyəti, həyata keçirdiyi layihələr və gördüyü işlər barədə məlumat verib.

Sonra general-polkovnik Kərim Vəliyev səfirliyin binasında Gürcüstanda olan şəhid ailələrinin üzvləri ilə görüşüb. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfir Faiq Quliyev çıxış edərək Gürcüstanda yaşayan soydaşlarımızın Birinci və İkinci Qarabağ müharibələri dövründə Azərbaycan dövlətinə göstərdiyi dəstək və yardımlardan söz açıb. Gürcüstandan olan 22 soydaşımızın şəhid olduğunu diqqətə çatdırıb. Bildirib ki, səfirlik Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanın tapşırığına əsasən şəhid ailələrinin qayğıları ilə maraqlanır, onların problemlərinin həllinə çalışır. Diplomat Gürcüstandan olan şəhidlərimizlə bağlı sənədli filmin çəkildiyini diqqətə çatdırıb, şəhidlərlə bağlı kitab hazırlandığını vurğulayıb.

Onun sözlərinə görə, dövlətimiz harada yaşamasından asılı olmayaraq bütün şəhid və qazi ailələrinə diqqət və qayğı göstərir. Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin təşəbbüsü ilə reallaşan bu görüş də məhz həmin siyasətin, diqqət və qayğının bariz nümunəsidir. General-polkovnik Kərim Vəliyev Gürcüstandan olan bəzi şəhidlərlə, o cümlədən Azərbaycanın Milli Qəhrəmanı polkovnik İlqar Mirzəyevlə bağlı xatirələrini bölüşüb.

Baş qərargah rəisi Gürcüstandan olan soydaşlarımızın Vətən müharibəsində əsl qəhrəmanlıq göstərdiklərini və heç bir şəhidin diqqətdən kənarda qalmadığını qeyd edib. Bildirib ki, Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi də Müzəffər Ali Baş Komandanın tapşırığına əsasən şəhid və qazi ailələrinə xüsusi diqqət və qayğı göstərir.

Sentyabrın 27-də keçirilən Anım Günündə nazirliyin rəhbər heyəti Şəhidlər xiyabanında şəhidlərimizin məzarlarını ziyarət edib, onların xatirəsini ehtiramla anıblar. Bu görüşün məqsədi isə Gürcüstanda olan şəhid ailələrinin qayğıları ilə maraqlanmaq, onların problemlərinin həllinə yardım göstərməkdir.

Hərbi qulluqçumuz yaralanıb

Atəşkəs haqqında əldə olunmuş razılaşmaya baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 28-i saat 18:00 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Alagöllər istiqamətində yerləşən bölmələrini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən hafta.az-a verilən xəbərə görə, atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu İsgəndərov Nicat Hidayət oğlu yaralanıb.

Hərbi qulluqçumuza lazımi tibbi yardım göstərilir. Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Bildiririk ki, baş vermiş insidentə görə bütün məsuliyyət vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə çalışan Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Şuşanın dəyişən siması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində inşa olunan yeni yaşayış kompleksində, Şuşa hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə, Azərbaycan Respublikasının Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə, Mehmandarovların malikanə kompleksində, yenidən qurulan hoteldə aparılan təmir-bərpa işlərinin və Şuşa şəhəri 1 saylı tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Gündəm

Dövlət başçısına və birinci xanıma Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil kommunal və təmir xidmətinin inzibati binasında görüləcək əsaslı təmir işləri barədə də məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində inşa edilən yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olublar.

Bildirildi ki, tikintinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksi 23 binadan ibarət olacaq. Səkkiz binanın tikintisinə bu il iyulun 1-də, digər 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb.

Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil olacaq. Burada birotaqlı mənzillərin sayı 28, ikiotaqlı mənzillərin sayı 195, üçotaqlı mənzillərin sayı 190, dördotaqlı mənzillərin sayı 30, beşotaqlı mənzillərin sayı isə 7-dir. Binalar 3 və 5 mərtəbəli olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə tanış olublar.

Bildirildi ki, ümumi ərazisi 3 hektardan artıq olacaq hotel və konfrans mərkəzinin inşaat işlərinə bu ilin aprelində başlanılıb. Mərkəz ümumilikdə 154 otaqdan ibarət olacaq. Burada 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, yeraltı və yerüstü avtodayanacaqlar və digər zəruri infrastruktur yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə tanış olublar.

Bildirildi ki, bina 1970-ci illərdə inşa edilib. Burada bərpa və yenidənqurma işlərinə 2021-ci ilin iyununda başlanılıb. Binada ümumilikdə 41 iş otağı var. Burada əməkdaşların yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb. Binada, həmçinin akt və iclas zalları da mövcuddur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi. Bildirildi ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

Heydər Əliyev Fondu Mehmandarovların malikanə kompleksində, həmçinin ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlayıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Eyvanların və erkerlərin taxta konstruksiyalarının çürümüş hissələri bərpa olunub. Evin çöl pilləkəni yenidən qurulub, döşəmə daşlarının dağılmış hissələri bərpa edilib. Eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülür. Bu işlər ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və "Güldəstə"sini də əhatə edir.

Bərpa işləri ilə tanışlıq zamanı Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib. Qeyd olundu ki, bulağın damı əvvəlki vəziyyətinə gətirilib.

Məlumat verildi ki, təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyasının qurulması nəzərdə tutulur. Muzeyin ekspozisiyası özündə bir şuşalının evini təcəssüm etdirəcək. Burada ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan, evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq otağı, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur. Qeyd olundu ki, təmir-bərpa işlərinin 2023-cü ildə yekunlaşdırılması planlaşdırılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada təmir və bərpa edilən hoteldə görülən işlərlə tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərində XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas olan tərzdə inşa edilmiş və hazırda bərpa olunan üç yaşayış binasının hotel kimi istifadəyə verilməsi nəzərdə tutulur. Bu binalar işğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmışdır. Bu ilin mayından başlayan bərpa işləri yekunlaşdıqdan sonra istifadəyə veriləcək hotelin interyeri autentik üslubda olacaq.

Məlumat verildi ki, binaların təməllərinin və divarlarının bərkidilməsi işləri aparılıb. İşğal dövründə binanın dağılmış hissəsi yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb. Həyətdəki yarımtikilinin divarlarında bərkitmə işləri aparılıb, dəmirbeton dam quraşdırılaraq tikintisi tamamlanıb. Təmir-bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. Bildirildi ki, ümumi tikinti sahəsi 4300 kvadratmetrə yaxın olan yeni məktəb binasının inşaat işlərinə 2021-ci ilin oktyabrında başlanılıb. Məktəb 960 şagird yerlikdir. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.

ABŞ və Fransanın reallıqları dəyişmək iqtidarında deyil

Regionda marağı olan böyük dövlətlərin Azərbaycanın erməni təxribatına qarşı 12-14 sentyabr "Qətiyyətli cavab" əməliyyatından sonra narahat olmağa başladığı müşahidə edilir. ABŞ Nümayəndlər Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfər edib "vay-şivən"indən sonra Fransa da hərəkətə keçib. Belə ki, artıq xəbərlər yayılıb ki, Fransa Müdafiə Nazirliyi sərhəddəki vəziyyəti dəyərləndirmək üçün Ermənistana nümayəndə heyəti göndərəcək.

ABŞ rəsmiləri delimitasiya aparılmadığı təqdirdə, sərhədlərin təyin olunmadığına baxmayaraq, yenidən Azərbaycanı Ermənistan ərazisinə girməkdə təqsirli bilərək, ordumuzun təcili geri - əvvəlki mövqelərinə çəkilməsi ilə bağlı bəyanatlar səsləndirməkdə davam edirlər. Fransa və ABŞ-ın belə bir mövqedən çıxış etməsi nəyə hesablanır?

■ **Bu barədə hafta.az-a açıqlama verən hərbi təhlilçi Alp Arslan İmamqulu bildirib ki, Ermənistan bu dəfə Qərbin açıq himayəsinə götürülüb:** "29 il ərazilərimizin işğal altında qalmasına laqeyd qalan Qərbin gerçək üzü aşkardadır. Bu "qlobal polis" dövlətləri indi də deyəsən, terrorizmin keşikçisi olmaq həvəsinə düşüblər".

Hərbi təhlilçi hesab edir ki, regionda marağı olan güclərin nə istəməsindən asılı olmayaraq, nə olur-olsun Azərbaycanın bir yolu var. O da ərazilərini varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsinə müvafiq olaraq delimitasiya edərək, terror yuvalarını sonsuzadək söndürməkdir.

"2020-ci ilin Vətən müharibəsində bizi qiymətləndirənlər bir çox şeyi nəzərə almamışdılar. Əslində isə görə bilmədikləri ən əsas məqam müqəddəs yolda irəliləyənlərin daim yanında olan Uca Allahın görünməz iradəsidir!" - A.A.imamqulu bildirib.

ABŞ və Fransanın regionda sülh quruculuğu prosesi ilə bağlı qeyri-konstruktiv mövqeyi və Azərbaycan Respublikasının ərazi bütövlüyünü hədəf alan "siyasi manevrləri" Cənubi Qafqazda yaranmış yeni reallıqlarla barışmaq istəməyən qərəzli mövqeyin göstəricisidir.

■ **Bunu hafta.az-a siyasi şərhçi Aytən Qurbanova Fransa Müdafiə Nazirliyinin sərhəddəki vəziyyəti dəyərləndirmək üçün Ermənistana nümayəndə heyəti göndərmək istəyi və ABŞ rəsmilərinin delimitasiya aparılmadığı təqdirdə, sərhədlərin təyin olunmadığına baxmayaraq, yenidən Azərbaycanı Ermənistan ərazisinə girməkdə təqsirli bilərək, Ordumuzun təcili geri - əvvəlki mövqelərinə çəkilməsi ilə bağlı bəyanatlarına şərhində bildirib.**

A.Qurbanova hər iki dövlətin 30 ilə qədər davam edən danışıqlar prosesində iştirak edən əsas aktorlar sırasında olduğunu qeyd edərək, işğal olunmuş ərazilərimizi sülh yolu ilə qaytarmağın mümkün olmadığını bu fonda aydın şəkildə göründüyünü deyib. "Bu gün artıq həm regionda, həm də beynəlxalq münasibətlərdə yeni reallıqlar formalaşmaqdadır və Azərbaycan Respublikası yeni yaranmış münasibətlər sistemində kifayət qədər önəmli rol oynayır. Ona görə də, istər ABŞ və ya Fransa, istərsə də başqa bir dövlətin Ermənistana havadarlıq etməsi bu reallıqları dəyişmək iqtidarında deyil. Hadisələri ən pis ssenariyə uyğun olaraq təhlil etsək, sərhədlərin delimitasiya və demarkasiya prosesini uzadaraq vaxt qazanmaq məqsədilə Azərbaycan-Ermənistan sərhəddində növbəti təxribatların olma ehtimalı yüksəkdir. Bir neçə gün əvvəl ABŞ və Fransa səfirliklərinin öz vətəndaşlarına müraciət edərək Azərbaycan-Ermənistan sərhəddində olan bölgələrə səyahət etməməyə çağırması da bu yanaşmanı bir daha təsdiq etmiş olur. Amma hər bir halda, Azərbaycan Respublikası təmkinli mövqeyini qorumaqla yanaşı hadisələri diqqətlə izləyir və bütün təxribatların qarşısını operativ şəkildə alacaq hərbi gücə və siyasi iradəyə sahibdir".

✍ *Tahirə*

27 Sentyabr

Xalqımız üçün müqəddəs olan 27 sentyabr tarixini hüznlə, amma həm də millətimizin içində heç vaxt sönməyəcək, çox qəribə sevinc hissi ilə andıq. Məhz bu tarixdə cəmi 44 gün çəkən və Ermənistanın kapitulyasiya sənədini imzalaması ilə başa çatan Vətən müharibəsinə start verilib. Təxminən, 30 ilə yaxın düşmən tapdağında qalan Vətən torpaqlarını azad etmək üçün 2020-ci il sentyabrın 27-də səhər saatlarında düşmən qüvvələrinin bitib-tükənməyən hərbi təxribatlarına qarşılıq verən Ordumuz əks-hücum əməliyyatına başlayıb.

Azərbaycanı Zəfərə aparan Tarix

Məlum olduğu kimi, əməliyyat noyabrın 10-dək davam edib. Himnimizdə də deyildiyi kimi, minlərlə canın qurban olması bahasına 30 illik həsrətə son qoyuldu, torpaqlarımız işğaldan azad edildi və bu böyük Zəfər Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən 27 sentyabr tarixi Azərbaycanda Anım Günü kimi qeyd edilir.

Geridə buraxdığımız 30 il, sadəcə, ermənilərin Azərbaycan torpaqlarını işğal etdiyi dövr kimi deyil, həm də Rusiya, Fransa və ABŞ-ın timsalında Minsk Qrupunun ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə planlı şəkildə biganəliyi ilə xatırlanmalıdır. Erməni işğalını legitimləşdirməyə çalışan bu üç dövlətin başaldadıcı fəaliyyəti sayəsində 1 milyondan artıq qaçqın və məcburi köçkün üç onillik dövrdə dədə-baba torpaqlarının nisgili ilə yaşadılar, hətta yaşlı nəslin böyük hissəsi bu arzunu özləri ilə qara torpağa apardılar. Bir gün vəfat etmiş əzizlərinin məzarlarını ziyarət edə biləcəklərini dünürkən, öz cisimlərini vətən torpağı olsa da, əzizlərinin məzarlarından uzaqda torpağa gömdülər. Bax, 30 illik işğal və bu amansız prosesi himayə edənlər Azərbaycan xalqına belə böyük iztirab yaşadıblar.

Ən pisi o idi ki, Azərbaycan torpaqlarına olan hərislik ermənilərin heç vaxt doymayan iştahasını daha da artırmışdı. Dörd il öncə ölkəsini səfalətdən qurtaracaq, iş yerləri yaradacaq və xalqı necə deyərlər, ağ günə çıxaracağına dair vədlər verərək hakimiyyətə gələn Nikol Paşinyan və komandası tamamilə əks-müstəvidə fəaliyyət göstərdi. Başda Paşinyan olmaqla, yeni erməni iqtidarı ikigündənbir işğal olunmuş Azərbaycan torpaqlarına gəlir, Şuşada, Xankəndidə xalqımızın heysiyyətini qıcıqlandıran bəyanatlar verir və bir az da azğınlaşaraq yeni ərazilər işğal etmək sevdasına düşürlər. 2019-cu ilin mart ayında ovaxtkı müdafiə naziri David Tonoyan ABŞ-da "yeni torpaqlar tutmaq üçün müharibə" çağırışını edib. Nəticəsi də özünü çox gözlətmir, bir il sonra - 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədilib. Əlbəttə, burada məqsəd bölgədə gərginliyi artırmaq, üçüncü dövlətləri münaqişəyə cəlb etmək idi. Söz yox ki, ordumuz düşmənə layiqli cavab verdi. Amma ermənilər arxalarında dayanan havadarların təhriki ilə 2020-ci ilin avqust ayında terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi...

Səbir kasası dolan Azərbaycan xalqı və dövləti qəti addınlar atmağa qərar verdi və sentyabrın 27-də başlayan əks-hücum düşməni bir daha ayağa qalxmayacaq vəziyyətə saldı. Hərbi əməliyyatın ilk günü Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad edildi.

Ümumilikdə, Azərbaycan Ordusu sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad edib.

O cümlədən, oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də Qubadlı və noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunub. Noyabrın 10-da Ermənistanın imzalaması ilə başa çatan Vətən müharibəsinə start verilib. Təxminən, 30 ilə yaxın düşmən tapdağında qalan Vətən torpaqlarını azad etmək üçün 2020-ci il sentyabrın 27-də səhər saatlarında düşmən qüvvələrinin bitib-tükənməyən hərbi təxribatlarına qarşılıq verən Ordumuz əks-hücum əməliyyatına başlayıb. Məhz bu tarixdə cəmi 44 gün çəkən və Ermənistanın kapitulyasiya sənədini imzalaması ilə başa çatan Vətən müharibəsinə start verilib. Təxminən, 30 ilə yaxın düşmən tapdağında qalan Vətən torpaqlarını azad etmək üçün 2020-ci il sentyabrın 27-də səhər saatlarında düşmən qüvvələrinin bitib-tükənməyən hərbi təxribatlarına qarşılıq verən Ordumuz əks-hücum əməliyyatına başlayıb. Təxminən, 30 ilə yaxın düşmən tapdağında qalan Vətən torpaqlarını azad etmək üçün 2020-ci il sentyabrın 27-də səhər saatlarında düşmən qüvvələrinin bitib-tükənməyən hərbi təxribatlarına qarşılıq verən Ordumuz əks-hücum əməliyyatına başlayıb.

Mətin Məmmədli,
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti:

- Bu Zəfəri bizə yaşadan Şəhidlərimizə Allahdan rəhmət dilədi. Allah Şəhidlərimizə rəhmət eləsin, yaralanan qazilərimizə cansağlığı versin. Məhz onların həyatı, canı bahasına Ordumuzun gücü, Dövlətimizin düşünülmüş siyasəti, hərbi-siyasi strategiyası nəticəsində biz iki il əvvəl belə bir böyük Qələbə əldə etdik. Qələbənin başlanğıcı 27 sentyabrda Azərbaycanın həyata keçirdiyi əks-hücum əməliyyatıdır. Bu gün ən yeni tariximizdə böyük bir gündür. Məhz 44 günlük Vətən müharibəsi nəticəsində həm böyük Qələbə əldə etdik, həm torpaqlarımızın əhəmiyyətli hissəsini işğaldan azad etdik və düşmən dövləti kapitulyasiya sənədini imzalamağa məcbur etdik. Böyük qələbə ilə yanaşı, regionda geosiyasi reallıqlar da əhəmiyyətli dərəcədə dəyişib. Dəyişən geosiyasi reallıqlardan ən əsası ölkəmizin Cənubi Qafqaz regionunda mövqeyinin xeyli güclənməsidir. Artıq mövqelərimiz qalib dövlət kimi güclənib. Bu həm region dövlətləri tərəfindən, həm də böyük dövlətlər tərəfindən nəzərə alınır. Azərbaycanla bərabər həm də qardaş, müttəfiq dövlət olan Türkiyə Cümhuriyyətinin Qafqazda təsir imkanları xeyli genişlənib. Bu da qeyd etdiyim kimi, yeni geosiyasi reallıqlardan biridir. Azərbaycan iki ölkə arasında münaqişəni bitmiş saysa da, problemlər qalmaqdadır və bu problemlərin həlli məqsədilə noyabrın 10-dan sonra sülh prosesi istiqamətində danışıqlar başlayıb. Təqdirəlayıq haldır ki, sülh prosesindəki diplomatik gündəlik ölkəmizin maraqları və mövqeyi nəzərə alınaraq müəyyənləşib. Dörd vacib mövzu var ki, tərəflər onların ətrafında danışıqlar aparırlar. Bu, iki ölkə arasında sülh müqaviləsinin imzalanması, regional kommunikasiyaların açılması, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi və humanitar məsələlərdir. Yəni göründüyü kimi, 44 günlük Vətən müharibəsinədək danışıqların əsas predmeti olan ermənilərin "status", "Minsk qrupunun vasitəçilik missiyası" və digər erməni diplomatlarının çalışdığı iddialar gündəmdən çıxarılıb. Bu, diplomatiyamızın uğurudur və bu nailiyyətə görə 44 günlük müharibədə əlsə etdiyimiz Qələbəyə borcluyuq.

Azər Hüseynov, siyasi təhlilçi:

- Azərbaycan son iki ildə istər geosiyasi, istər geoiqtisadi baxımdan kifayət qədər irəliyə doğru addımlayıb. Dünyanın bir çox ölkəsində, eləcə də İranda ictimai sabitliyin olmadığı bir dövrdə, Azərbaycanda sabitliyin olması, eyni zamanda, hərbi qələbələrin əldə edilməsi Azərbaycan Dövlətinin böyük nailiyyətlərdən biridir. Ümumilikdə, iki il ərzində Azərbaycan Dövlətinin nüfuzunun artması, eləcə də onun Türkiyə ilə ittifaqının güclənməsi, eyni zamanda, diplomatik vasitələrlə Rusiya təsirinin azaldılması - bütün bunlar təqdirəlayiq və önəmli məsələlərdir. Bununla belə, iki il ərzində keçdiyimiz yol deməyə əsas verir ki, regionda daha da güclənmək, böyük geosiyasi hədəflərə nail olmaq üçün Türkiyə ilə münasibətlərimizi sıxlaşdırmalı və onunla müxtəlif istiqamətlərdə daha dərin, geosiyasi, hərbi, iqtisadi konfiqurasiyalar qurmalıyıq. Azərbaycan Dövlətinin gördüyü gözəl işlərdən biri tarixi torpaqlarına hüquqi miras olduğunu qaldırmasıdır. Azərbaycan 1918-1920-ci il sərhədləri ilə bağlı yenidən düşünməlidir. Bu, öncə Ermənistanla bağlı olmalıdır. Digər qonşularımızla sərhəd məsələsinin qabardılmasının tərəfdarı deyiləm. Qonşularımız bizə qarşı ərazi iddiaları ilə çıxış etmirlərsə, bizim də orada "qanamayan yerdən qan çıxarmağa" ehtiyacımız yoxdur. Ermənistan dəfələrlə Azərbaycan torpaqlarına təcavüz etdiyinə görə, sərhədlərin yenidənqurulması ilə bağlı fəaliyyət həyata keçirə bilər.

Zaladığı kapitulyasiya aktına əsasən isə qısa vaxtda Ağdam, Kəlbəcər və Laçın rayonları bircə güllə atılmadan, heç bir şəhid verilmədən düşmən əsarətindən qurtarılıb.

Fərəhverici haldır, müharibənin ilk günü Prezident İlham Əliyev Füzuli döyüşləri barədə danışarkən deyirdi ki, "Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək..." və nəhayət, bu doğma torpaq düşmən əsarətindən azad edildi. Həm də ön cəbhə olduğu üçün, çox böyük canlı qüvvə itkisi bahasına. Müharibənin son günü - noyabrın 8-də Şuşa işğaldan azad olunanda da dövlət başçısı məhz Şəhidlər xiyabanından xalqa necə deyərlər, gözaydınlığı verdi - "Şuşa Azərbaycandır!" - dedi.

Çox qəribədir, 44 günlük müharibədə qazanılan Şanlı Zəfər 3 minə yaxın şəhid verən, minlərlə qazisi olan Azərbaycan xalqını küçə və meydanlarda azadlıq sevincinə boğmaqla yanaşı, həm də ölkəmizin və məhz bir gözündən kədər, bir gözündən sevinc yaşı axan xalqımızın əsl dostunu da, düşmənini də üzə çıxardı. Dostumuz eyni dili, eyni qanı bölüşdüyümüz qardaş Türkiyə, mənəvi yardımları ilə bizi tək buraxmayan Pakistan, bacardığı dəstəyi verən İsrail, sözdə olsa da az-çox dəstək verməyə çalışan türk dövlətləridir. Düşmənimiz isə daha çoxdur. Vaxtilə Azərbaycan torpaqlarını işğal etməkdə ermənilərə birbaşa hərbi-texniki və canlı qüvvə ilə dəstək vermiş, 30 il Ermənistanın timsalında işğal siyasətini dəyişməz saxlamış Rusiya hansısa hərbi-siyasi maraqları xatirinə seyrçi mövqeyində qalsa da, üç onillik dövr ərzində guya bizə sülh yaratmaqda dəstək verməyə çalışmış Fransa əsl üzünü göstərdi, Azərbaycanın əleyhinə qatı nifrətdolu ultimatumlar verdi, Fransa senatı daha da irəli gedərək, hökumətə Dağlıq Qarabağın müstəqilliyini tanımağı tövsiyə etdi, heç vaxt bizimlə problemi olmayan Yunanıstan və yunan Kipri ermənilərə dəstək nümayiş etdirdi, hətta onlara hərbi yardım edə biləcəyini dilə gətirdi. Ən pisi isə o oldu ki, hər zaman Azərbaycana "şiə təəssübkeşliyi" ifadə edən, Azərbaycanın dövlət müstəqilliyini və inkişafını heç vaxt həzm etməyən İran da ermənilərə arxa çıxdı. İran sərhədimizə ordu topladı, ardıyla hərbi təlimlərə başladı, iranlı yanacaq daşıyan tanker avtomobillər isə sanki Ordumuzu qıcıqlandırmağa çalışırmış kimi, Şəhid qanı ilə islanmış Vətən torpaqlarımızı yarıb, Xankəndidəki separatçı rejimin harayına tələsirdilər.

ABŞ-a gəlincə, o vaxt prezident seçkiləri keçirilən ərəfə idi, dinib-danışmadılar. Bu, heç də Vaşinqtonun Azərbaycanın öz torpaqlarını azad etməsini alqışladığı anlama gələməməlidir. Niyə? Çünki son vaxtlar "ölmüş və dəfn edilmiş" Minsk qrupunu dirçəltmək cəhdləri, Nümayəndələr Palatasının spikeri Nensi Pelosinun İrəvana gəlib Azərbaycanın əleyhinə sərsəmləməsi ABŞ-ın da xristian-Qərb blokunda müsəlman Azərbaycana qarşı dayandığını isbat edir.

Bu yerdə misirli yazıçı və blogger Sabir Məşhurun dediklərindən sitat gətirək. Cənab Məşhur Pelosinin səfərini şərh edərkən deyir ki, bu qoca qarı nə demokratiya tanıyır, nə də gözündən yaş axıda biləcək incə qəlbə malikdir. O, sadəcə, xristian qütbünün qəddar nümayəndəsidir. "Osmanlı Ordusu tərəfindən, guya, qətlə yetirilmiş ermənilərin dırnaqarası soyqırımı abidəsi önündə ağlamağa çalışan Pelosinin gözündən yaş çıxdımı, məncə yox. Çox çalışdı bu baş versin, amma alınmadı, çünki onun ağlayacaq hissi yoxdur. Həm də saatlarla vaxt ayırdığı sifətinə etdiyi makiyajı pozmaq istəməzdi. Axı ağlasaydı, sifəti makiyaj rənglərinə boyanmalı idi", - Sabir Məşhur deyir.

Bu arada, Azərbaycan müstəqil olduğu 30 il ərzində İran tərəfindən həmişə eşitdiyi bu olub: İran Amerikanın və sionistlərin (İsrailin) sərhədlərində peyda olmasına icazə verməyəcək. Çox maraqlıdır, Çini (həm də İranın əsas ticarət tərəfdaşı) müharibəyə təhrik etmək məqsədilə Tayvana səfər edən bu qarı indi də Ermənistanda, İranın düz sərhədində zühur edib, amma Tehran səssiz qaldı.

Bu arada Nensi, Allah eləməsin, Bakıya səfər etmiş olsaydı, İran hansı reaksiyanı verərdi? Hansı ki, Pelosinin Ermənistan səfərindən az sonra İranda qadınların timsalında xalq küçələrə tökülüb...

Sözümün canı budur ki, 27 sentyabrda başlayan əks-hücum əməliyyatları yalnız torpaqlarımızı bizə qaytarmadı, həm də dost libaslı düşmənlərimizi tanıtdı. O dostları ki, bu gün də mənfur düşmənin 30 illik işğalı ərzində daşını-daş üstə qoymadığı Azərbaycan torpaqlarının bərpasında və yenidən tikilməsində cani-dildən əmək sərf edirlər. Əlbəttə, qazan-qazan prinsipi var, amma hər halda yüzminlərlə məcburi köçkünün daha tez ev-eşiyinə dönməsi üçün dostların köməyi zəruridir...

Sonda qeyd edim ki, 27 sentyabr tarixini şəhid məzarları başında anım günü olaraq kədərlə xatırlasaq da, inşAllah, cəmi ayyarımdan sonra - noyabrın 8-də böyük coşqu ilə, sevinclə Zəfər Gününü qeyd edəcəyik. Həmin günü bizə məhz 27 sentyabrdan başlayaraq öz qanı bahasına xalqımızı Zəfərə qovuşduran Şəhidlərimiz, qazilərimiz və bugünkü veteranlarımız nəsib ediblər.

Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı versin.

✍ Vüsal Tağıbəyli

"Şəhid ailələri o ada hörmət etməlidir"

...Vətən Müharibəsindən 2 il keçdi. 2020-ci il sentyabrın 27-də düşmənin hərbi həmlələrinə qarşı əks- hücuma keçən Ordumuz 44 gün davam edən savaşda düşməni qovaraq torpaqlarımızdan çıxardı. Silahlı Qüvvələrimiz bu müharibədə 3 000 Şəhid verdi, Azərbaycan xalqının 10 mindən çox yaralı qazisi oldu. Müharibədən 2 il ötməsinə baxmayaraq, savaşın vurduğu yaralar sağalmayıb... 2022-ci il sentyabrın 27-də xalqımız Vətən müharibəsi iştirakçılarını, hərbçilərimizi, Şəhidləri qürurla, hüznlə andı.

Sevinc Alızadə,
"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

Müsahib

"Qarabağın, ətraf rayonların azad olunması o ağlayan insanlarımıza bir təsəllidir

Bu müraciətlər, əsasən, işlə təmin olunma, reablitasiya tədbirləri, təhsillə bağlıdır

Azərbaycan Dövləti fiziki olaraq itirdiyi igid qəhrəmanlarını heç vaxt unutmayacağını, onların geridə qoyduğu Vətən, ana, bacı, övlad əmanətinə sahib çıxacağını, qoruyacağını, öz öhdəlikləri sırasında mühüm yerdə dayandığını bəyan etdi.

Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə 27 sentyabr ANIM GÜNÜndə Şəhid ailələrini, qaziləri ovunduran və narahat edən məqamlara toxundu...

- Bizi Zəfərə aparan 44 günlük müharibənin başlanmasının ikinci ili tamam oldu. Azərbaycan Dövləti, xalqı öz qəhrəman Şəhidlərini, Qarabağ savaşlarında keçdiyimiz ağrılı, acılı, qürurlu yola nəzər salaraq onları bir daha xatırladı. Bir Şəhid ailəsi, Şəhidlərlə bağlı İctimai Birliyin rəhbəri olaraq 27 sentyabr Anım Gününü necə dəyərləndirərdiniz?

- Azərbaycan xalqı, dövləti 44 günlük müharibədə canlarından keçən Şəhidlərimizin əbədi xatirəsini andı. Hər bir kəs, bütün insanlarımız bölgələrdə olan Şəhidlər xiyabanlarını, Şəhid məzarlarını ziyarət etməyi, onların ruhuna dualar oxumağı özlərinə vəzifə borcu bildi. Biz dünən Azərbaycan xalqının böyüklüyünü, öz qəhrəmanlarına verdiyi dəyərin əyani, bariz nümunəsirni gördük.

Mən xalqımızın dövlətin, millətin azadlığı uğrunda şəhid olan oğul və qızlarına necə ehtiramla yanaşdığını 20 Yanvar, Xocalı soyqırımı ilə bağlı qeyd olunan matəm günlərində də müşahidə etmişəm. Bu gün də gördüm ki, bu xalq bu cür anım günlərində birləşir, həm Şəhidlərini başı üzərinə qaldırır, ucaldır, eyni zamanda, öz ehtiramını, sədaqətini, Şəhidlər qarşısında öz Vətən, təşəkkür və minnət borcunu ödəmiş olur. Biz bu dəyəri gələcək nəsillərə də aşılamağa çalışırıq.

- 27 sentyabr Anım Günü Şəhid ailələrinin həyatlarında, düşüncələrində hansı məlhəmi qoya bildi?

- Mən bir Şəhid ailəsi kimi deyə bilərəm ki, bu ağrı mənim üçün, övladlarım üçün heç vaxt azalmadı.

Bir insanın itkisini heç nə əvəz edə bilməz. Əgər bu, bir qəhrəmanın itkisidirsə, onun yerini heç nə doldura bilməz. Şəhid ailələri qəhrəman övladlarını, qəhrəman ərlərini itiriblər. Onlar o insanlardır ki, Vətən yolunda öz canlarını fəda ediblər. Mənə elə gəlir ki, illər ötdükcə insanlar bu acılara məlhəm ola biləcək insanların dəstəyi ilə təskinlik tapmağa çalışırlar, həm də biz yaralarımızı sarımağa çalışırıq. Qarabağın, ətraf rayonların azad olunması o ağlayan insanlarımıza bir təsəllidir. Hesab edirik, onların oğullarının apardığı mübarizə, canlarını fəda etmələri boş yerə olmadı. Düşünürəm, bizim üçün ən böyük məlhəm də budur. Bundan sonra da bizim üçün ən böyük təskinlik o olacaq ki, torpaqlarımız abad olacaq, millətimiz orada məskən salacaqdır. Bunları gördükcə acılarımız azalar, yaralarımıza su səpilər.

- İctimai təşkilat olaraq, Şəhid ailələrində keçirdiyiniz görüşlərdə nəyə şahid oldunuz? Şəhidlərin əmanətlərinə münasibət bu gün hansı səviyyədədir, Şəhid ailələrinin nəyə ehtiyacı var?

- Mütəmadi olaraq Şəhid ailələri ilə görüşürük. Onların övladlarının təhsili, eləcə də sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı bir çox layihə həyata keçiririk. Çalışırıq, əsasən bölgələrdə işimizi aktivləşdirək. İki nümayəndəliyimizi Cəlilabad və Goranboyda yaratmışıq. Layihələrimizi bölgələrdə də davam etdirəcəyik. Bütün layihələrimizi tək Bakı şəhərinə şamil edib, regionlarda olan Şəhid ailələrinin diqqətdən kənarda qalması düzgün olmaz. Bütün Şəhidlərin xatirəsini yad edirik, onların anım tədbirlərində iştirak edirik və ailələrinin yanında oluruq. Şəhid əmanətlərinin hər bir vətəndaşımız, sosial məsuliyyət daşıyan şirkətlər tərəfindən qayğıya ehtiyacı var. Onların yükü tək bir dövlət qurumunun məsuliyyəti üzərində daşınacaq bir yük deyildir. Millət olaraq onlara daim şəfqətlə yanaşmağa borcluyuq. Şəhid ailələri tərəfindən bizə çox müraciət olur. Bu müraciətlər, əsasən, işlə təmin olunma, reablitasiya tədbirləri, təhsillə bağlıdır. Əlimizdə olan imkanlardan istifadə edərək bacardığımız qədər onlara köməklik edirik.

- Şəhid ailələri dövlətin hansı qayğısı ilə əhatə olunur? Onların övladlarının təhsili, evlə təminatı, işlə təminatı, ümumən yaşayışları necə təmin edilir? Şəhid ailələri ilə bağlı hansı tədbirlərin keçirilməsinə zərurət var?

- Dövlət Şəhid ailələrinə, qazilərimizə müxtəlif fondlar üzərindən dəstək göstərir. Şəhid ailələri mənzillərlə təmin olunur, ailənin müxtəlif yaş həddlərində olan üzvləri öz fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət tərəfindın qayğı ilə əhatə olunurlar. Müşahidələr deməyə əsas verir ki, hələ də qayğıya ehtiyacı olan ailələr var.

Bugünkü gündə, xüsusilə regionlarda yaşayan Şəhid ailələrinin evlə təminatının sürətləndirilməsinə ehtiyac var. Hamının Bakıya gəlib qeydiyyatdan keçərək evlə təmin olunması məsələsi mürəkkəbdir. Şəhid ailələri regionlarda Şəhidlərin yaşadıqları, məzarlarının yerləşdiyi rayonlarda evlərlə təmin olunmalıdırlar. Bugünkü günümüzdə Şəhid ailələrinin qarşılaşdığı ən böyük problem odur. Şəhid xanımlarının məşğullluğu ilə bağlı problemlər var. Onların peşəyönümlü ixtisaslara yiyələnməsi üçün böyük layihələrin həyata keçirilməsinə ehtiyac var.

- Şəhid ailələri ilə bağlı məmurlar tərəfindən yaradılan müəyyən problemlərin olmasından danışılırdı. İki il sonra vəziyyət necə, dəyişibmi? Şəhid ailələrinin özlərində, davranışlarında hansı neqativlərin aradan qaldırılmasını önə çəkərdiniz?

- İki il ərzində məmurların münasibətində dəyişikliyin müsbət istiqamətdə getdiyini söyləmək olar. Bu da ictimai qınaq və ictimai təşviqin nəticəsindədir. Hər biri dərk edir ki, Vətənin azadlığı, bütövlüyünün əldə olunmasında, ilk növbədə, onlara borcluyuq. Torpaqlarımızın azad olunmasında hər bir Şəhidimizin haqqı var və o haqlara sahib çıxmalıyıq. Məncə, artıq məmur özbaşınalıqlarının qarşısı alınmaqdadır. Digər tərəfdən, Şəhid ailələri o ada hörmət etməlidir. Şəhid ailələri elə bir qəhrəmanların ailələridir ki, onlar həmişə yüksəkdə olmalıdırlar. Onlar həmişə öz davranışlarında qəhrəmanlarını yaşatmağı bacarmalıdırlar. Ətrafdakılara gələcək nəslə nümunə olmalıdırlar. O qəhrəmanların adlarına layiq yaşamağı bacarmalıyıq və çalışmalıyıq ki, onların xatirələrini daim başımızın üstündə tutaq. Əminəm, o qəhrəmanları yetişdirən ailə də bu mənəvi yükün ağırlığını dərk edib və bu yükü şərəflə daşımağa qadir olacaqdır.

- Qazilərin sosial şəraitinin yaxşılaşması, əlilliyin təyinatı, müalicələrinin aparılması və digər məsələlərlə bağlı hansı məqamlar həllini gözləyir?

- Əlillərin reabilitasiyası ilə bağlı mütəmadi olaraq işlər görülür. Bəzən elə hallar olur ki, sorğunun düzgün verilməməsi problemin vaxtında həll edilməməsinə səbəb olur. Bu istiqamətdə də köməkliyimizi əsirgəmir, sorğunun düzgün yönləndirilməsi ilə bağlı məsləhətlər veririk. Vətən müharibəsi ilə bağlı əlillliyin təyinatı prosedurları hələ də davam edir. Əminəm ki, əlillərin davamlı reablitasiya kursları keçməsi onları sağlamlıqlarına qovuşduracaqdır. Allahdan hər bir Şəhidimizə rəhmət, qazilərimizə şəfa diləyirəm. Allah Azərbaycanı, Dövlətimizi qorusun!

✍ Tahirə Qafarlı

Xəzərin ekosisteminə təhdid

Layihə

Araşdırmalara görə, hər il su hövzələrinə planetimizin su həcminin 20 faizi qədər çirkli sular axıdılır. Bu sularda olan çirkləndiricilərin təsirini azaltmaq üçün onlara öz həcmindən 10 dəfə artıq təmiz su qarışdırılmalıdır. Amma bu mümkün olmadığı üçün Yerdə içməli su problemi getdikcə kəskinləşir. Nəticədə bəzi çay və göllərin çirklənməsi fəlakət həddinə çatıb. Dünya okeanı da sürətlə çirklənməkdədir.

Aralıq, Şimal, Azov, Qara və s. dənizlər, Meksika, İran, Biskay körfəzləri Dünya okeanının ən çirkli su hövzələri sırasına daxildir. Okeanın mərkəzi hissələrində, dərin çökəkliklərində radioaktiv maddələrin (AES-lərin tullantıları, nüvə silahlarının sınaqları nəticəsində yaranan tullantılar) miqdarı getdikcə artır. Okeanın çirklənməsində neft və neft məhsullarının payı daha çoxdur. İldə 3 milyondan 10 milyon tona qədər neft okeana axıdılır. Tankerlərin qəzası zamanı okeana qısa vaxt ərzində min tonlarla neft axır.

Məlumat üçün bildirək ki, 1978-ci ildən Beynəlxalq Dəniz Təşkilatı (BDT) Ümumdünya dəniz gününü qeyd edir. Bu günün tarixi hər dövlət üçün həmin ölkənin Beynəlxalq Dəniz Təşkilatının üzvləri tərəfindən təyin olunur. Azərbaycanda isə bu tarix sentyabr ayının son həftəsinə təsadüf edir. Bu gün ictimaiyyətin diqqəti gəmiçiliyə və dənizlərin mühafizəsinə cəlb olunur. 1977-ci ilin noyabrında keçirilmiş Hökumətlərarası Dəniz Təşkilatı Assambleyasının 10-cu sessiyasında qərara alınmış Ümumdünya Dəniz günü 1978-ci ildən qeyd olunur. 1980-ci ilə kimi bu gün 17 martda qeyd olunurdu. Hazırki dövrdə isə bu gün sentyabrın axırıncı həftəsi qeyd olunur.

Bütün dünyada bu bayramın keçirilməsinin məqsədi ictimaiyyətin, hökumət və özəl strukturların diqqətini dənizlərin və onların bioresurslarının qorunmasına cəlb etməkdir. Ənənəvi olaraq Dəniz günü dənizlərin və okeanların insanlar üçün əhəmiyyətindən, sualtı dünyanın sərvətlərindən və həmçinin hər bir Yer planeti sakininin onun qorunması üçün nə edə biləcəyindən bəhs edən konkurs, festival formasında keçirilir. Adətən ictimai təşkilatlar bu bayramı dənizlərin qorunması, çimərliklərin təmizlənməsi üçün mitinqlərin və yürüşlərin keçirilməsi ilə qeyd edirlər.

Dünyanın ən böyük gölü hesab olunan, dibindəki okean tipli yer qatı və dəniz ölçülərinə malik olduğuna görə dəniz adlandırılan Xəzərin də kifayət qədər ekiloji problemləri var. Son illər isə səviyyəsinin aşağı enməsi aktual problemlərdən birinə çevrilib. Ümumiyyətlə, Xəzər dənizinin ən mühüm xüsusiyyəti səviyyəsinin mütəmadi olaraq qalxıb-enməsi hesab olunur. Dənizin səviyyəsinin dəyişməsinə əsas səbəb onun su balansı elementlərinin dəyişməsidir. Səviyyə özünün ən yüksək qiymətini iyun-avqust, ən aşağı qiymətini isə dekabr-fevral aylarında alır.

2005-ci ildən Xəzərin səviyyəsində davamlı enmə müşahidə olunur. Ötən ilin məlumatına görə, dənizin səviyyəsi 2005-ci illə müqayisədə 1,19 metr aşağı düşüb. Yəni ən çox enmə 30 santimetr olmaqla 2021-ci ildə qeydə alınıb. Təbii ki, səviyyənin aşağı düşməsi fonunda dəniz ekosistemi, biomüxtəlifliyi üçün risklər yaranır. Buna dünyada gedən iqlim dəyişmələri və qlobal istiləşmənin, eyni zamanda antropogen amillərin təsir etdiyi də qeyd olunur.

Rauf Sultanov,
Azərbaycan Ekologiya Standartlarının Monitorinq Fondunun prezidenti

Xəzərin sərhəd hissələrində atılan çirkli sular dənizin dibində olan bitki örtüyünü məhv edir

Son onillikdə Xəzər dənizində həmçinin balıq ehtiyatları kəskin azalıb və bu da əsasən balıq kütləsinin böyük hissəsini təşkil edən kilkə balıqlarının azalmasında müşahidə olunur. Kilkələrin azalması onlarla qidalanan daha böyük balıqların - siyənək, qızılbalıq, nərəkimilər və suitilərin də azalmasına gətirib çıxarıb. Endemik növ olan Xəzər suitisinin sayı XX əsrin əvvəllərində 1 milyon təşkil etsə də, hazırda onların sayı çox azdır.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən ekoloq, Azərbaycan Ekologiya Standartlarının Monitorinq Fondunun prezidenti Rauf Sultanov bildirib ki, bu proses iqlim dəyişikliyi ilə bağlıdır: "İqlim dəyişikliyi təbii prosesdir.** 12 ildən bir belə dəyişikliklər müşahidə olunur. Yerin öz oxu ətrafında fırlanması də prosesə təsir edir. Xəzər dənizində 50-100 metr çəkilmə qeydə alınır. Son yüzilliklərdə bu hal dəfələrlə baş verib. Amma ümumilikdə Xəzərin problemləri regional bir məsələdir. Beş ölkənin çirkab sularının Xəzərə axıdılması dənizin biomüxtəlifliyinə də böyük təsir göstərib. Bilirsiniz ki, Xəzərin sərhəd hissələrində atılan çirkli sular dənizin dibində olan bitki örtüyünü məhv edir. Bitki örtüyünü məhv etmək həmin bitkilərlə qidalanan canlıların qidasını məhv etmək deməkdir. Bu bitkilərlə digər bitki orqanizmləri də qidalanır, onlar isə balıqların yemi sayılır. Qida zənciri ilə bağlı dənizdə böyük bir proses baş verir. Yer kürəsində oksigenin əmələ gəlməsində su bitkilərin rolu 60 faizdir. Təsəvvür edin ki, əgər quru ərazidə bitkilər məhv edilibsə, bunu insan müəyyən müddətdən sonra bərpa etmək imkanına malik olur.

Qida zəncirində bu proseslər bir-birinə olduqca böyük təsir göstərir. Həm oksigen təminatı, həm də yem olaraq bitkilərin məhv olması bioloji resurslara böyük təsir göstərir. Bu gün Volqa çayı hövzəsində böyük bir ərazinin məişət tullantıları çaya axıdılır. Ən böyük zərbə də Xəzərin şimal ərazisinə dəyir. Eyni zamanda, Xəzər dənizində neft çıxarılması nəticəsində dəniz neftlə çirklənir, bu, biomüxtəlifliyə ən güclü təsir göstərən amillərdən biridir. SSRİ dövründə Azərbaycanda Ekologiya Nazirliyi yox idi, o zaman Xəzərin çirklənməsi kimsəni maraqlandırmırdı. Çıxarılan neftin müəyyən bir hissəsi dənizə axırdı. Bu, dənizin ekoloji vəziyyətinə çox pis təsir etdi. İndi də Xəzərin şelf ərazilər var ki, torpaq bir neçə metrə qədər neft məhsulları ilə zəhərlənib. Hazırda müasir texnologiyalarla neft çıxarıldığı üçün dənizdə çirklənmənin qarşısı müəyyən qədər alınır. İndi Xəzərin biomüxtəlifliyinin qorunması istiqamətində müxtəlif ölkələr, eləcə də Azərbaycan vəsaitlər sərf edir və balıq yetişdirmə təsərrüfatları təşkil olunur. Milyonlarla balıq hər il Xəzər dənizinə buraxılır, amma istər-istəməz dənizin bioresursları getdikcə azalır. Başqa dənizlərdən fərqli olaraq Xəzər dənizi unikal bir dənizdir, şimalı ilə cənub hissəsi bir-birindən fərqlənir. Xəzər dənizinin duzluluğu şimal , cənub və orta hissədə fərqlidir. Bu fərqi qoruyub saxlamaq müəyyən canlıları qorumaq baxımından vacibdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Ekspert rəyi

■ **Məsələyə münasibət bildirən Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə isə hesab edir ki, səviyyənin dəyişməsində başlıca amil Xəzərin hövzəsinin iqlimidir:**

"Qapalı su hövzəsi olan Xəzər dənizinin səviyyəsində periodik olaraq dəyişmələr baş verir. Səviyyə tərəddüdü Xəzər dənizinin su balansı elementləri, yəni onu qidalandıran çaylar, düşən yağıntının miqdarı, buxarlanma səviyyəsi, digər tərəfdən dəniz dibində baş verən tektonik hərəkətlərlə əlaqəlidir. Eyni zamanda fəsillərlə bağlı olaraq səviyyə il ərzində dəyişə bilər. 1977-1995-ci illərdə Xəzər dənizinin səviyyəsi 2,5 metr qalxmışdı. Həmin dövrdən əvvəl isə ən aşağı səviyyə qeydə alınmışdı. 2005-ci ildən etibarən dəniz səviyyəsində enmələr müşahidə olunur. Səviyyə tərəddüdü qlobal iqlim dəyişmələri ilə bağlı olduğundan bu proseslərə yalnız iqlimə təsirlərin qlobal səviyyədə azaldılması hesabına təsir etmək olar. Bunun üçün isə atmosferə atılan istilik effekti yaradan qazların azaldılması üzrə qlobal səylər göstərilməlidir".

R.Səttarzadənin sözlərinə görə, Azərbaycan istixana qazlarının səviyyəsini azaltmaq üzrə könüllü öhdəlik götürüb və bu istiqamətdə müvafiq tədbirlər görülür. Lakin Azərbaycanın qlobal emissiyalarda payı cəmi 0,15 faizdir və bu sahədə müvəffəqiyyətə nail olmaq üçün istilik effekti yaradan qazların qlobal emissiyalarında payı çox olan ölkələr tərəfindən davamlı olaraq ciddi tədbirlər görülməlidir: "Bu çox uzun sürən prosesdir və buna görə də, biz öz həyatımızda, fəaliyyətimizdə təbii amillərlə bağlı olan səviyyə tərəddüdlərinə uyğunlaşmalıyıq. Xəzər dənizinin səviyyəsinin dəyişməsi ətraf mühitə, təsərrüfat sahələrinə, xüsusilə dənizdə neft-qaz əməliyyatlarına, dəniz nəqliyyatına, limanların fəaliyyətinə təsir edir. Buna görə də, Ekologiya və Təbii Sərvətlər Nazirliyi məsələyə xüsusi diqqət yetirir. Milli Hidrometeorologiya Xidmətinin hidrometeoroloji müşahidə məntəqələrində dəniz səviyyəsi üzərində müntəzəm müşahidələr aparılaraq səviyyənin düşməsi tendensiyası nəzarətdə saxlanılır. Müvafiq maraqlı tərəflər, xüsusilə fəaliyyətləri dənizlə bağlı olan qurumlar məlumatlandırılır ki, işlərində və gələcək fəaliyyətlərini planlaşdıranda bu məqamları nəzərə alsınlar".

✍ ***Sevinc***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.

XƏBƏRİNİZ OLSUN...

■ Avropa İttifaqı (Aİ) "Şimal axını" qaz kəmərlərində baş vermiş qəzaların araşdırılması üçün aparılan istənilən araşdırmanı dəstəkləyəcək. Bunu Aİnin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell deyib.

■ Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Maliyyə Xidmətinin rəisi Rəşad Məlikzadə həbs edilib. Rəşad Məlikzadə 9 milyon manata yaxın mənimsəmədə təqsirləndirilir.

Onun barəsində Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdara mənimsəmə) maddəsi ilə ittiham verilib. Onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

■ Avropa valyutası manat qarşısında tarixi minimuma enib. Sentyabrın 28-də avronun məzənnəsi 1,6236 manata enib. Bu isə sentyabr ayının 1-i ilə müqayisədə Avropa valyutasının 4,6%, 2022-ci ilin əvvəlindən isə 17,7% ucuzlaşması deməkdir. Qeyd edək ki, 2022-ci ilin əvvəlində avro 1,9191 manata ticarət edilmişdi.

■ Argentina millisinin futbolçusu Lionel Messi Fransanın PSJ klubu ilə müqaviləsini yeniləmək istəmir. Bu barədə ispaniyalı jurnalist Mikel Blaskes özünün sosial şəbəkə hesabında paylaşım edib. Onun sözlərinə görə, 35 yaşlı hücumçu mövsümün sonunda Paris təmsilçisindən ayrılacaq.

■ Cənubi Koreya Milli Kəşfiyyat Xidməti Şimali Koreyanın nüvə sınağı keçirəcəyi ehtimalını təsdiqləyib. Bu barədə Cənubi Koreya parlamentinin deputatı Yon Qon Yon Milli Kəşfiyyat Xidmətinin qapalı brifinqindən sonra məlumat verib.

■ "Rusiya ordusunda çoxsaylı problemlər mövcuddur, canlı qüvvə çatışmazlığı onlardan biridir".

Bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börns CBS-yə müsahibəsində bildirib. Onun sözlərinə görə, Rusiya Prezidenti Vladimir Putin 300 min əsgəri səfərbər edə bilsə belə, bu, onların top yemi kimi cəbhəyə atılması demək deyil:

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

■ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində Vətən Müharibəsi zamanı və erməni təxribatlarının qarşısını alarkən yaralanan hərbi qulluqçuqlara yardım göstərilməsi ilə bağlı koordinasiya mərkəzi yaradılıb. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi planlama departamentinin rəhbəri Hikmət İbrahimli məlumat verib. H.İbrahimli bildirib ki, rayon mərkəzi xəstəxanalarında qazilərin sayına görə koordinatorlar işə götürülüb.

■ Ukrayna adından Böyük Britaniyada baş tutacaq "Avroviziya-2023" beynəlxalq mahnı müsabiqəsinin keçiriləcəyi namizəd şəhərlərin sayı 2-yə düşüb. Onlar Qlazqo və Liperpuldur. Avropa Yayım Birliyi (AYB) bəyan edib ki, məhz bu şəhərlər beynəlxalq müsabiqəni keçirə bilər.

"ABŞ və Avropanın Ukraynaya göndərmək üçün silahları tükənir"

Ukraynada müharibə uzandıqca Avropa və ABŞ-da Kiyevi silahla təchiz etmək məsələsi daha da qəlizləşir. Artıq bir çox analitiklər bu məsələnin həlli və davamlı olması üçün bir sıra zəruri addımların atılması qənaətindədir. ABŞ və Avropanın Ukraynaya göndərmək üçün silahları tükənir. Bu barədə ABŞ Milli Müdafiə Universitetinin dosenti və baş hərbi tədqiqatçısı Deyv De Roş məlumat verib.

"Mən çox narahatam. Artması aylarla davam edən yeni istehsalımız olmasa, ukraynalıları təmin edə bilməyəcəyik" - o deyib.

Aİ diplomatı Josep Borrell daha əvvəl demişdi ki, "Əksər Avropa dövlətlərinin hərbi ehtiyatları böyük ölçüdə tükənib: "Çünki biz ukraynalılara böyük hərbi yardımlar edirik". NATO-nun Baş katibi Yens Stoltenberq çərşənbə axşamı alyansın silahlanma direktorlarının xüsusi iclasını keçirərək üzv dövlətlərin silah ehtiyatlarının artırılması yollarını müzakirə edib.

Hərbi analitiklərin qənaətincə, əsas problem Qərb ölkələrinin sülh dövründə silah istehsalını xeyli aşağı səviyyədə həyata keçirməsidir. Hökumətlər çox bahalı istehsalı azaltmağa və yalnız lazım gəldikdə silah istehsal etməyə üstünlük verirdilər. Ehtiyatı tükənən bəzi silahlar artıq istehsal olunmur və onların istehsalı yüksək ixtisaslı işçi qüvvəsi və təcrübə tələb edir - bütün bunlar ABŞ-ın istehsal sektorunda illərdir çatışmayan amillərdir. Stoltenberq keçən həftə BMT Baş Assambleyasında deyib ki, NATO üzvləri silah sektorundakı sənaye bazalarına yenidən sərmayə qoymalıdırlar.

Lakin müdafiə istehsalının qurulması asan və sürətli iş deyil. ABŞ bu günə qədər 15,2 milyard dollar dəyərində silah paketi təqdim edərək, Ukraynaya ən böyük hərbi yardım göstərən ölkə olub.

ABŞ-ın Ukraynaya təhvil verəcəyi 155 mm-lik haubitsalardan demək olar ki, qalmayıb. Hərbi analitiklərin fikrincə, Pentaqon üçün bu, qəbuledilməzdir, yəni ABŞ əməliyyatları üçün ayrılan tədarüklərə təsir etmək ehtimalı azdır. "Bir sıra sistemlər var ki, məncə, Müdafiə Nazirliyinin Ukraynaya bu xüsusi sistemin daha çoxunu təqdim etmək istəmədiyi bir nöqtəyə gəlib çatmışdır" deyib, keçmiş USMC polkovniki və Strateji Araşdırmalar Mərkəzinin baş məsləhətçisi Mark Kanchian.

Səbəb isə "ABŞ-ın müharibə planlarını dəstəkləmək üçün ehtiyatlarını saxlamasıdır". Ukrayna qüvvələri üçün bu o deməkdir ki, onların 155 mm-lik haubitsa kimi ən vacib döyüş texnikalarından bəziləri daha köhnə və daha az optimal silahlarla, məsələn, daha kiçik faydalı yükə və daha qısa məsafəyə malik olan 105 mm-lik haubitsa ilə əvəz edilməlidir.

"Və bu, ukraynalılar üçün problemdir," De Roche deyir, "çünki bu müharibədə məsafə kritikdir. Bu, artilleriya döyüşüdür".

Ukraynanın etibar etdiyi və hazırda ABŞ arsenalında "məhdudlaşdırılmış" kimi təsnif edilən digər silahlara HIMARS buraxılış qurğuları, Javelin raketləri, Stinger raketləri, M777 haubitsa və 155 mm-lik döyüş sursatları daxildir.

Pentaqon yüz milyonlarla dollar dəyərində yeni Javelin sifariş edib, lakin onları qurmaq üçün vaxt lazımdır. Kanchian deyib ki, ABŞ-ın ümumi silah istehsalını əhəmiyyətli dərəcədə artırmaq üçün bir ildən dörd ilə qədər vaxt lazım ola bilər.

✍ ***Azad Əliyev***

Ərdoğan seçkilərdə qalib gələrsə...

Dünya düzəninin əsas iştirakçıları olan dövlətlər öz maraqları naminə geosiyasi vəziyyəti getdikcə gərginləşdirməkdə davam edir. Proseslər çox sürətlə dəyişir. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən politoloq Rauf Məmmədov yaranmış vəziyyəti təhlil edib.

Müsahib

- Elə ondan başlayaq ki, ABŞ Konqresi Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfərinin arxa planında nə dayanırdı? Bu səfər nəyə görə böyük səs-küyə səbəb oldu?

- Nensi Pelosinin Ermənistana səfərini ABŞ-da gözlənilən seçkilərlə bağlamaq istəyənlər də vardır. Səfərdə bu amilin olması mümkündür. Bu, səfərin əsas məqsədi deyildir. Bu səfəri ABŞ-ın Ermənistanı dəstəkləməsi ilə məhdudlaşdırmaq doğru olmazdı. ABŞ qlobal gücdür və onun oynadığı siyasi oyunlar qlobal xarakter daşıyır. Son dövrdə dünyanın yenidənqurulması və ya yeni dünya düzəninin qurulması məsələsi trenddir. İkinci dünya müharibəsindən bugünədək ikiqütblü dünya sistemi çərçivəsində dünyaya ağalıq edən ABŞ-ın dünyada gedən dəyişikliklərdən kənarda qalması mümkün deyildir. Əksinə, onun bu məsələdə daha fəal və daha aqressiv olması gərəkdir. Yeni dünya düzəni qurulursa, deməli, dünya liberalizminin başında dayanan ABŞ imperiyası çökür. Əslində, bu proses SSRİ-nin çökməsi ilə başladı. SSRİ də liberal sistemin sol qanadı idi. Deməli, bir zaman SSRİ-ni çökdürən gücün planında vaxtı gəldikdə ABŞ-ı da çökdürmək planları vardır. Əks təqdirdə, liberal dünya düzəninə alternativ olan yeni düzənin gündəmə gəlməsi və reallaşması qeyrimümkün olar.

- Bəs liberal sistemə alternativ olan və yeni dünya düzənini reallaşdırmağa çalışan kimdir?

- Bu, ABŞ ortaya çıxanadək dünya üzərində hegemon güc olan və dünya tradisionalizminin mərkəzi olan Böyük Britaniya Krallığıdır. O, ABŞ-ın içində respublikaçılarla birgə demokratların qarşısında yer almışdır. ABŞ içində yer alan bu dualizm bütün dünya ölkələrinin siyasi elitası daxilində də gizli və ya açıq şəkildə yer tutub. Biz bu dualizmi Türkiyənin və Rusiyanın daxilində açıq şəkildə görürük. İran, Çin kimi qapalı ölkələrdə bu dualizm qapalı şəkildə mövcuddur. Bu güclər arasında savaş pik həddə çatanda, ölkələr öz daxilindən qaynayıb-çalxalanır. Bu gün İranda baş qaldıran hadisələr buna nümunə ola bilər.

- Son günlərdə dünyada hadisələrin daha gərgin həddə qədəm qoyduğunu müşahidə edirik. Bu, nə ilə bağlıdır?

- Bu hadisələr - Böyük Britaniya kraliçasının ağır xəstəlik durumu və sonra vəfatı ilə pik həddə çatdı. Bu ərəfədə saray daxilində qapalı çərçivədə gizli proseslər baş verdi və baş verməkdə davam edir. 44 günlük savaşda Azərbaycanın mövqeyini BMT-nın TŞ-da dəstəkləyən Böyük Britaniya, nədənsə, sonradan Londonda Azərbaycan Səfirliyinə təcavüz edən terrorçuların əməllərinə heç bir reaksiya vermədi. Türkiyə ilə yaxın əməkdaşlıq edən Boris Conson birdən vəzifəsindən kənarlaşdırıldı. Kraliçanın dəfn mərasimində Böyük Britaniya ilə yaxın əməkdaşlıq əlaqələrində olan Türkiyə, Azərbaycan, Çin prezidentləri iştirak etmədilər.

Britaniya ilə yaxın əlaqələrdə olan respublikaçıların nümayəndəsi Donald Tramp mərasimə dəvət almadı. Yaxud dəfn mərasiminə dəvət olunan dövlət rəhbərləri avtobuslara doldurularaq sıravi şəkildə qəbul edildi və yeni krala, sanki beyət etmək mərasiminə dəvət olundular. Bu dəfn mərasimində ABŞ Prezidenti C. Bayden müstəsna olaraq öz qoruyucuları və xüsusi avtomobilləri ilə mərasimə qatıldı. Bu mənzərə belə təəssürat yaratdı ki, yeni Böyük Britaniya Kralı III Çarlz yeni dünyanın imperatoru, ABŞ isə onun dünyada hakimiyyətini təmin edən tək jandarm dövlətdir.

- Bu görüntülər bizə nə deyir?

- Nensi Pelosinin Ermənistana gələrək Azərbaycan və Türkiyəyə mesajlar göndərməsi, İranda baş qaldıran iğtişaşlar, PKK rənginə bürünən Zəngəzur-Göyçə respublikası təxribatının ortaya çıxması, Çində daxili dövlət çevrilişləri ilə bağlı məlumatların yayılması onu göstərir ki, böyük savaş başlayır. Vladimir Putin buna görə "nüvə silahını işə salacağının blef olmadığını" dilə gətirdi.

- Türkiyə, Azərbaycan, Çin ilə əməkdaşlıq əlaqələrində olan və "bir kəmər, bir yol" layihəsində bu ölkələrlə strateji hədəfləri olan Böyük Britaniya nədən belə bir dönüş etsin? Ümumiyyətlə, bunu necə başa düşmək olar?

- Böyük Britaniya krallığının "bir kəmər, bir yol" layihəsi çərçivəsində Türkiyə, Azərbaycan, Çin ilə böyük strateji əməkdaşlıq əlaqələri vardır. "Bir kəmər, bir yol" layihəsi Avrasiya məkanında yerləşən əksər ölkələrin iqtisadi mənafelərinə xidmət edir. Bu kəmərin əsas quru yolu Orta Asiya, Azərbaycan və Türkiyədən Avropaya uzanır. Bu xəttin əsas keçid xətləri Xəzər dənizi və Zəngəzur dəhlizidir. Rusiya və İran bu layihədə əsas rol almadıqları üçün, həm Xəzər dənizinin statusunun müəyyənləşməsinə, həm də Zəngəzur dəhlizinin açılmasına etiraz edirlər. Çin də əvvəllər xəttin türk-müsəlman ölkələrindən keçməsindən ehtiyat edirdi. Son dövrdə bunun alternativi olmadığını görüb durumla barışdı. Rusiya da Türkiyə və Azərbaycan ilə ortaq danışıqlara gedərək, Zəngəzur dəhlizinin açılmasına maraq göstərdi. Görünür, burada Türkiyə və Azərbaycan ilə ortaq maraqlar formalaşdırıldı. Görünür, Rusiya, Türkiyə və Azərbaycanın "Bir kəmər, bir yol" layihəsində ortaq maraqlardan çıxış etmələri Böyük Britaniyanı qane etmədi. Layihəyə nəzarət Avrasiyada Böyük Britaniyanı deyil, Rusiya, Türkiyə və Azərbaycanın mövqelərini güclərdirirdi. Bu da səbəblərdən biri və əsası ola bilər. "Bir kəmər, bir yol" layihəsində İranın da maraqları nəzərə alınmamış deyil. Görünür, ona təklif olunanla razılaşmır. Daha doğrusu, İran daha uzunmüddətli strateji maraqlarından çıxış edərək, dəhlizi özünün milli təhlükəsizliyinə təhdid kimi dəyərləndirir. Bu səbəbdən, onun gerçəkləşməsini istəmir. Türkiyə və Azərbaycan üçün bu dəhlizin iqtisadi əhəmiyyətindən daha çox siyasi əhəmiyyəti vardır. Asiya və Avropanı birləşdirən iqtisadi və enerji xətlərinə nəzarət etmək, Türkiyə və Azərbaycanın Avrasiyada geosiyasi çəkisini artıracaq və siyasi dividendlər əldə etməsinə şərait yaradacaqdır. İran buna görə də layihəyə mane olur. İran Hindistan (və ya Çin)-İran, İran-Ermənistan-Gürcüstan-Qara dəniz xəttininin reallaşmasında daha maraqlıdır. Bu baxımdan, İran, Avrasiyanı İran-Turan qarşıdurmasına aparan xəttin gerçəkləşməsinə təkid edir.

Rauf Məmmədov,
politoloq

> *ABŞ Ermənistanı və Gürcüstanı Rusiya və Türkiyənin əlindən alaraq, onları öz nəzarətinə keçirmək istəyir*

- ABŞ-ın bölgədə marağı nədir?

- ABŞ dünyada öz hegemonluğunu qorumaq üçün bu layihələrin nəzarətində olmasını istəyir. Buna görə də ABŞ ən böyük səfirliklərinin birini Ərbildə, digərini Yerevanda açıbdır. ABŞ Ermənistanı və Gürcüstanı Rusiya və Türkiyənin əlindən alaraq, onları öz nəzarətinə keçirmək istəyir. O, bununla Ermənistanı və Gürcüstan vasitəsilə Qara dənizə çıxmaqla Avropaya bir yol açır, digər tərəfdən, İranı qarışdırmaqla İran Kürdüstanı, Cənubi Azərbaycanın bir qismi, Naxçıvan və Zəngəzura koridor açmaq hədəfi daşıyır. Zəngəzur-Göyçə Respublikası təxribatı və İranda üsyanın ilk qığılcımı olan öldürülmüş kürdmənşəli qadının atasına Bərzani tərəfindən başsağlığı göndərilməsi məsələsi buna işarədir. ABŞ bölgədə türk-kürd savaşını alovlandıraraq Cənubi Qafqaza qədər genişləndirmək məqsədi daşıyır. İranda baş verən hadisələr iki ssenari üzrə davam edə bilər: ya İranı parçalayaraq Suriyaya çevirmək və onun şimal bölgələrində türk-kürd qarşıdurması yaratmaq planı durur. Yaxud, İran hakimiyyətini mövcud durumdan çıxarmaq şərtini irəli sürərək, onu sanksiyalardan azad edir və Türkiyə ilə savaşa təhrik edir. Əsas məqsəd ikinci ola bilər. İranın dağılması, orada Türkiyə və Azərbaycanın dəstəyi ilə böyük bir türk dövlətinin yaranması demək olar. Bunu ABŞ və Avropa dövlətləri istəməz. Zatən, indiki klerikal rejimin 1979-cu ildə Fransadan ABŞ-ın dəstəyi ilə hakimiyyətə gətirilməsi bu məqsədə xidmət edirdi. ABŞ-ın Ermənistana dəstək verməsi və bölgəni buradan qarışdırması, Ermənistan hakimiyyətinə revanş üçün güc verir. Durumun bu şəkilə düşməsi Böyük Britaniyanın maraqlarına uyğun görünmür. Əgər elə olmasaydı, o zaman 44 günlük savaşda nədən Böyük Britaniya BMT TŞ-da Ermənistana deyil, bizə dəstək oldu? O zaman, Böyük Britaniya ABŞ-ın bölgəni nəzarətə almasına necə razılıq verə bilər?

Bu sualların cavabını vermək asan deyil. Ehtimal etmək olar ki, Böyük Britaniya Krallığının daxilində bizə məlum olmayan çox qaranlıq məsələlər dönür. Yəqin bir müddətdən sonra bəzi sirlərin üstü açılacaq.

Qarşıda Türkiyədə və ABŞ-da seçkilər olacaqdır. Deməli, 2023 və 2024-cü illər çox tələtümlü keçəcəkdir. R.T. Ərdoğan 2023-cü il seçkilərində qalib gələrsə, yeni dünya düzəni Türkiyə ilə başlayacaqdır. Buna görə də, R.T. Ərdoğan Nensi Pelosinin Ermənistana gəlişini önəmsiz bir ziyarət olduğunu, Azərbaycanla bölgədə yeni planlarının olduğunu və bu planların Əliyevlə müzakirə ediləcəyini bildirdi.

✍ ***Tahirə Qafarlı***

Rusiya qarşı səkkizinci sanksiyalar paketi

Avropa Komissiyası Rusiyaya qarşı səkkizinci sanksiyalar paketini açıqlayıb. Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen və Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrellin birgə keçirdiyi mətbuat konfransında deyilib ki, "ötən həftə "Rusiya Ukraynaya təcavüzünü yeni bir səviyyəyə qaldırıb".

Aİ liderləri bildirib ki, "Rusiyanın işğal etdiyi ərazilərdə saxta referendumlar keçirməsi qeyri-qanuni torpaq qoparmaq və beynəlxalq səviyyədə tanınmış sərhədləri güc yolu ilə dəyişdirmək cəhdidir". "Səfərbərlik və Prezident Putinin nüvə ritorikası gərginliyin daha da artırılması yolunda yeni addımlardır. Biz heç bir saxta referendumu və anneksiyaları qəbul etmirik. Biz bütün bunların bədəlini Kremlə ödətdirməkdə qətiyyətliyik. Bu gün biz Rusiyaya qarşı yeni sanksiya paketini təklif edirik", - Ursula von der Leyen bildirib. O vurğulayıb ki, növbəti sanksiyalar paketində fiziki və hüquqi şəxslərin yeni siyahısı təqdim olunacaq: "Ticarətin daha da məhdudlaşdırılması və Rusiya məhsullarına yeni idxal qadağaları. Hansı ki, bu, ölkənin iqtisadiyyatını 7 milyard avro gəlirdən məhrum edəcək. İxrac sahəsində məhdudiyyətlər, xüsusən də onun müharibəsi üçün lazım olan əsas texnologiyalar, aviasiya ilə bağlı hissələr və ya kimyəvi maddələr bura daxildir. Rusiya Avropanın beyin gücü və təcrübəsindən də faydalanmamalıdır. Beləliklə, biz təklif edirik ki, Rusiyaya Avropa xidmətlərinin göstərilməsinə əlavə qadağalar tətbiq olunsun. Aİ vətəndaşlarının Rusiya dövlət şirkətlərinin idarəetmə orqanlarında çalışması qadağan edilsin".

Von der Leyen əlavə edib ki, sanksiyaların bir hissəsi Rusiyanın nefti ilə bağlı olacaq: "Biz neft qiymətlərinin həddi üçün hüquqi əsasın müəyyən olunmasını təklif edəcəyik. Bəzi inkişaf etməkdə olan ölkələrin hələ də aşağı qiymətlərlə Rusiya neftinə ehtiyacı var. Bu hədd Rusiyanın gəlirlərini azaltmağa və qlobal enerji bazarlarını sabit saxlamağa kömək edəcək. Biz sanksiyaların qarşısının alınması ilə bağlı səylərimizi gücləndiririk.

Ona görə də biz yeni kateqoriya əlavə edirik ki, sanksiyalarımızdan yayınan şəxsləri siyahıya sala bilək. Məsələn, Rusiya tərəfi Avropadan məhsul alıb onu üçüncü ölkə vasitəsilə Rusiyaya keçirə bilməyəcək. Bu, güclü çəkindirici təsir olacaq".

İslahat

Bir neçə gün əvvəl Prezident İlham Əliyev "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman imzaladı. Bununla da, "Media haqqında" yeni qanunun qəbulundan sonra bu sahədə ikinci ən önəmli layihə reallaşdı. Bəs Media Reyestri nə deməkdir və hansı məqamları özündə ehtiva edir? Media Reyestri elektron informasiya ehtiyatı kimi yaradılır və media subyektləri, onların redaksiyaları, jurnalistlər haqqında məlumatlar reyestrə daxil edilir. Reyestrə daxil edilmiş media subyektlərinə Media Reyestri Şəhadətnaməsi, jurnalistlərə isə vəsiqə veriləcək. Şəhadətnamənin müddətsiz, jurnalist vəsiqəsinin isə 3 il müddətinə verilməsi nəzərdə tutulur.

Media Reyestri - yeni mərhələ

Aydın Quliyev,
"Bakı Xəbər" qəzetinin Baş redaktoru:

- Media reyestrinin aparılması ölkənin media sektorunun indikindən qat-qat artıq səviyyədə konkretləşməsi, aydınlaşması, media sektorunun əhatə dairəsinin müəyyənləşməsi, dövlətin dəstək siyasətinin daha da dəqiqləşməsinə öz təsirini göstərəcək. Azərbaycan mühitində peşəkar jurnalistikanın dəqiq müəyyənləşməsinə ehtiyac var. Son illərdə medianın ən pis təzahürləri olan "reket jurnalistika", "şantaj, mənəvi terror" "jurnalist adından sui-istifadə" deyilən mənfi təzahürlər baş qaldırıb. Bunların qarşısının alınması inzibati vasitələrlə mümkün olmurdu. Peşəkar və yalançı jurnalistin kim olduğunu bunun əsasında müəyyənləşdirmək mümkün olacaq. Jurnalist reyestri əsl jurnalistlərə əlavə imkanlar verəcək. Peşəkar jurnalistikanın ipoteka imkanlarından istifadə etməsinə imkan yaradacaq. Media sektorunun şəffaflanmasında mühüm rol oynayacaq. Bir sözlə, media reyestri ölkə mediasının inkişafında nəzərəçarpan mənzərəni açmalıdır.

Yunus Oğuz,
"Olaylar" qəzetinin Baş redaktoru:

- Media Reyestrinin tətbiqi Azərbaycanda jurnalistlərin sayını, fəaliyyətini müəyyən etməyə imkan verəcək. Yerindən duran deyir jurnalistəm, blogerəm. Müəyyən olunacaq ki, Azərbaycanda nə qədər jurnalist var, nə qədəri reketdir, nə qədəri fəaliyyət göstərir. Belə məlumat aldım ki, Azərbaycanda 380 sayt var.

Deyilənə görə, bunlardan 100-ü işləmir, 100-ü reketdir, yerdə qalır 180 sayt. Deməli, bu problem tənzimlənməlidir. Bu fərman mətbuat üzərində heç bir nəzarət yaratmır. Sadəcə olaraq qeydiyyatdan keçməlisən ki, görsünlər ki, jurnalistsən, ya yox. Amma istəsən qediyyatdan keçmədən də jurnalist fəaliyyəti ilə məşğul olacaqsan. Azərbaycanda 17 çap mətbuatı varsa, qalanları nə edir. Media Reyestri buna da aydınlıq gətirəcək.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman media islahatları sahəsində yeni mərhələnin başlanğıcı hesab oluna bilər. Əgər biz fikir versək görərik ki, Media Reyestrində qeydiyyat tamamilə könüllülük prinsipi əsasında aparılır.

Yəni burada məcburiyyət amili yoxdur. Media sahəsində jurnalist kimi fəaliyyət göstərən istənilən şəxs yenə də jurnalist kimi öz fəaliyyətini davam etdirməkdə tam sərbəstdir. Fərman bu fəaliyyətə heç bir məhdudiyyət gətirmir. Lakin unutmamalıyıq ki, jurnalist fəaliyyətinin ən başlıca prinsipi mediada peşə etikası qaydalarına riayətdir. Reyestrdə qeydiyyatdan imtinanın əsas səbəblərindən biri məhz jurnalist adı altında peşə etikasını pozanların, fəaliyyətlərində bu kimi neqativ hal aşkar edilənlərin əməllərinin məhdudlaşdırılması və aradan qaldırılmasıdır. Fikrimcə, əgər jurnalist fəaliyyəti dövründə peşə etikası qaydalarına riayət edirsə, onun reyestrdə qeydiyyat üçün müraciət etməməsinə səbəb qalmır. İndi ən çox müzakirə edilən məsələlərdən biri jurnalistika sahəsində fəaliyyət göstərən, lakin ali təhsili olmayan, habelə ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslərlə bağlı müddəadır. Unutmamalıyıq ki, medianın əsas funksiyası və vəzifəsi məlumatlandırma, təbliğat və maarifləndirmədir. Belə olan halda yuxarıda sadalanan kriteriyalara cavab verməyən media təmsilçilərinin əsas vəzifələrini nə dərəcədə peşəkarcasına həyata keçirdiyi də müəyyən suallar doğurur. Təbii ki, müəyyən istisnalar mövcuddur. Bu səbəbdən, media həm də dövlət təhlükəsizliyinin ayrılmaz tərkib hissəsi olduğu üçün yanıldıcı, təhlükəsizliyə təhdid yarada biləcək və jurnalistin qeyri-peşəkarlığından qaynaqlanma ehtimalı olan təhdidlərin aradan qaldırılması üçün bu kriteriyaların tətbiqini də zəruri hesab edirəm.

> *Azərbaycan mühitində peşəkar jurnalistikanın dəqiq müəyyənləşməsinə ehtiyac var*

> *Qediyyatdan keçmədən də jurnalist fəaliyyəti ilə məşğul lacaqsan*

Media Reyestrinin yaradılması məqsədlərini araşdırsaq əminliklə söyləyə bilərik ki, Media Reyestri media sahəsində nizam yaratmaq, media subyektlərinin və jurnalistlərinin fəaliyyətinin düzgün təşkili və onlara mümkün imkanların yaradılmasını təmin etmək üçün yaradılır. Media Reyestrinə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqəsinin təqdim olunması onların daha rahat fəaliyyətinə imkan yaradacaq, media subyektləri və jurnalistlərin hüquqlarının daha yüksək səviyyədə müdafiəsini təmin edəcək.

Reyestrə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər. Media Reyestri jurnalistlərin akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsini təmin edəcək. Bu gün mediada ən çox şikayət etdiyimiz məqamlardan biri sorğularımıza, qaldırdığımız məsələlərə operativ reaksiya verilməməsi, informasiya əldə etmək istiqamətində müəyyən çətinliklərlə üzləşdiyimizlə bağlıdır.

Göründüyü kimi, artıq Reyestr bu sahədə də jurnalistlər qarşısında yeni imkanlar açır. Belə demək mümkündürsə, medianın son illərdə cəmiyyətdə aşağı düşən nüfuzu və statusu yenidən özünə qaytarılır. Jurnalistlərin və media subyektlərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək proqramlardan, veriləcək qərarlardan yararlanmaq imkanı, medianın daha müstəqil və peşəkar səviyyədə keyfiyyətli xəbər istehsalına zəmin yaradır. Unutmamalıyıq ki, hər bir sahə hüquqi qaydalar və qanunlarla tənzimlənir. Son illərdə istər ölkəmizdə, istərsə də dünyada informasiya texnologiyalarının çox sürətli inkişafı mediada özünü daha çox büruzə verir. Sosial şəbəkələr, internet platformasının yaratdığı imkanlardan sui-istifadə edərək media adına ləkə gətirənlərin sayı drmadan artır. Bu mənfi tendensiyanın hüquqi çərçivədə nizamlanması artıq zərurətdir. Bunu heç bir peşəkar jurnalist inkar edə bilməz. Media Reyestrinin yaradılmasına da bu prizmadan yanaşmaq məncə daha doğrudur.

✍ ***Azad Əliyev***

"Əmək pensiyaları haqqında" Qanun dəyişdirilir

Gələn ildən Azərbaycanda bütün növ pensiyalar artırılacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli Sərəncamı ilə qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının (dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslər və s.) pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə dair təkliflər Milli Məclisdə müzakirəyə çıxarılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əmək pensiyaları haqqında" Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdirilərək artırılması mexanizmi tətbiq ediləcək. Bu və digər məsələlərlə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyevin "Həftə içi" qəzetinə müsabisəsini təqdim edirik.

Musa Quliyev,
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili

Müsahib

- Musa müəllim, "Əmək pensiyaları haqqında" Qanununa nəzərdə tutulan yeni dəyişikliklərin əsas mahiyyəti nədən ibarətdir? Bu layihənin hansı üstünlükləri olacaq?

- Bu gün biz Əmək və sosial siyasət komitəsinin iclasında bu məsələni müzakirəyə çıxardıq və Milli Məclisin plenar iclasına da tövsiyyə etdik. Onu deyim ki, nəzərdə tutulan bütün dəyişikliklər pozitiv istiqamətdədir və vətəndaşlarımızın pensiya təminatını yaxşılaşdıracaq, etibarlılığını artıracaq, eyni zamanda, pensiya təyinatının və artırılmasının avtomatlaşdırılmış sistemdə daha da yaxşı inteqrasiya olunmasını təmin edəcək, müəyyən qədər sosial ədalətsizliyi aradan qaldıracaq. "Əmək pensiyaları haqqında" Qanuna ediləcək dəyişiklikləri biz iki istiqamətdə xarakterizə edə bilərik. Burada mahiyyət nədən ibarətdir? Birinci istiqamət ondan ibarətdir ki, Azərbaycanda bu gün pensiyaçıların təxminən 93 faizi ümumi əsaslarla pensiya alır. Yəni, sosial sığorta əsasında pensiya alırlar. Onların da pensiyası hər il ölkə üzrə əvvəlki ildəki orta aylıq əmək haqqı artımının faizinə uyğun olaraq indeksləşdirilərək artırılır. Amma 80-85 min nəfər pensiyaçımız var ki, bunlar "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsinin təsiri altındadırlar.

Yəni, onlar qulluq əlavəsinə görə pensiya alan şəxslərdir ki, bunların pensiyası hər il indeksləşdirilərək artırılmırdı, yalnız işlədikləri vəzifələr üzrə maaşlar nə vaxt artırılırdısa, o zaman artım baş verirdi. Bu kateqoriyaya deputatlar, hakimlər, prokurorlar, digər xüsusi rütbəli şəxslər, hərbi qulluqçular, Ombudsman Aparatı, Mərkəzi Seçki Komissiyasının üzvləri və dövlət qulluqçuları aiddir.

İndi biz istəyirik ki, yeni qanun layihəsi ilə vahid indeksasiya metoduna keçək. Həmin şəxslərin də pensiyası 3-5 ildən bir deyil, digər pensiyaçılar kimi hər il orta aylıq əmək haqqının artım faizinə uyğun olaraq artsın. Bu dəyişiklik onu verəcək ki, birinci növbədə onların da pensiyaları inflyasiya təsirlərindən qorunmuş olacaq. Digər tərəfdən pensiyaçılar arasında təxmini bərabərlik yaranacaq.Yəni, bütün vətəndaşlarımızın pensiyası eyni qaydada artırılacaq. Müqayisə üçün deyim ki, 10 il ərzində umumi əsaslarla pensiya alanların pensiyası 98 faiz artıb. Amma hərbi qulluqçularda bu istiqamətdə artım 59 faiz baş verib. Dövlət qulluqçularında bu göstərici 69 faiz təşkil edib. Prokurorlarda, hakimlərdə artım daha az faizdir. Bu addım həmin insanların sosial müdafiəsini gücləndirəcək, digər tərəfdən də 80 mindən çox insanın pensiyası yüz bir milyon insanın pensiyası kimi eyni qaydada hesablanacaq. Digər istiqamət nə ilə bağlıdır? Xatırlayırsınızsa, ötən il ölkədə çox sərt şəkildə inflyasiya prosesi baş verdi və təəssüflər olsun ki, bu meyillər indi də davam edir. Bunun müqabilində orta aylıq əməkhaqqı çox yüksəlmədi. Ona görə də 2022-ci il üçün pensiyaların sığorta hissəsini indeksasiya edib artırmaq çox cüzi səviyyədə mümkün oldu. Cənab Prezident də pensiyaçıların pensiyasını inflyasiyadan qorumaq, onların sosial təminatlarının pisləşməsinin qarşısını almaqdan ötrü bu ilin fevralında müvafiq sərəncam verdi. Həmin sərəncama uyğun oalaraq da hər bir pensiyaçıya əlavə 200 manat maddi yardım göstərildi. Bu sığorta prinsipindən kənarda olan məsələ idi, Prezidentin yardımı idi. İndi bu qanunla biz onun hüquqi əsasını yaradırıq ki, maddi yardım da pensiyanın içərisinə daxil olsun və hər il pensiya indeksasiya edilib artırılanda bu maddi yardımın da faizinə uyğun artım baş versin.

> *Sosial evlər layihəsini stimullaşdırmaqdan ötrü hökümət tərəfindən müəyyən addımlar atılmalıdır*

- Gələn ilin sosial müdafiə xərcləri barədə nə deyə bilərsiniz? Təxminən, bu istiqamətdə nə qədər artım gözlənilir?

- Bu barədə hələlik heç nə deyə bilməyəcəyəm. Çünki gələn ilin büdcə layihəsi hələ bizə gəlməyib. Sənəd parlamentə oktyabrın 15-də daxil olacaq.

- Növbəti ildə şəhid ailələri, qazilər və bu kateqoriyadan olan digər insanlar üçün dövlət tərəfindən həyata keçirilən dəstək proqramlarının genişləndirilməsi nəzərdə tutulurmu?

- Təbii ki, bu istiqamətdə işlər davam etdiriləcək. Amma gələn ilin dövlət büdcəsi layihəsi hələ ki, bizə gəlmədiyinə görə konkret rəqəmlər söyləyə bilmirəm. Sözsüz ki, bu kateqoriyadan olan insanların pensiyasında, təqaüdlərində, müavinətlərində də artımlar nəzərdə tutulacaq. Eyni zamanda, həmin insanların məşğulluğunun da daha geniş şəkildə təmin olunması, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması, müalicə xərcləri və digər məsələlərdə təminatlar nəzərdə tutulub. Yəni, bu istiqamətdə proqramlar ildən-ilə genişləndiriləcək. Cənab Prezidentin də dediyi kimi, 2025-ci ilə qədər mənzil təminatından kənarda bir nəfər də olsun şəhid ailəsi, Qarabağ qazisi qalmayacaq. Digər tərəfdən, ən yaxşı təminat aktiv sosial müdafiə yolunu seçməkdir. Yəni, onların məşğulluğunun təmin olunmasıdır ki, iş yerləri olsun, işləsinlər və yaxud da öz kiçik biznesləri olsun.

Heç kimdən də asılı olmasınlar. Dövlətin pensiyası, müavinəti öz yerində. Amma daha yaxşı olar ki, aktiv şəkildə fəaliyyət olsun. Bu mənada hesab edirəm ki, "Məşğulluq Marafonu" gələn il yenə də davam etməlidir. Bu layihə çərçivəsində bütün işəgötürənlər fəal iştirak etməlidirlər. Yəni, hər şeyi dövlət edə bilmir.

Dövlət sahibkara şərait yaradırsa, sahibkarın da bir sosial məsuliyyəti olmalıdır. Və sahibkar da sosial müdafiəyə ehtiyacı olan həmin şəxslərimizə öz dəstəyini göstərməli, ən azı işə götürməlidir. Bu istiqamətdə maarifləndirmə işlərinin aparılmasına ciddi ehtiyac var. Gələn il də özünəməşğulluq proqramı davam edəcək. Bilirsiniz ki, bu proqram Mehriban xanım Əliyevanın irəli sürdüyü bir layihədir və artıq 5 ildir ki, başlayıb. İldə təxminən 15-17 min insan bu layihə çərçivəsində öz ailə biznesini qurur. Onların da təxminən 50 faizi şəhid ailələri və qazilərdir. Bu insanların hər cür dəstək görməyə haqları var. Dövlət və cəmiyyət olaraq biz bu dəstəyi də göstərməyə borcluyuq.

- Qeyd etdiniz ki, növbəti ilin büdcə sənədi hələlik parlamentə daxil olmayıb. Amma hər halda gələn il üçün minimum əməkhaqqının, ehtiyac meyarının artırılıb-artırılmayacağı barədə məlumatlı olmuş olarsınız. Bu barədə nə deyə bilərsiniz?

- Yenə də deyirəm, büdcə bizim əlimizdə olmadığından konkret bir fikir söyləyə bilmirəm. Amma məntiqlə və aparılan siyasətin də ardıcıllığını nəzərə alaraq hesab edirəm ki, həm ehtiyac meyarı, həm minimum əməkhaqqı, həm də yaşayış minimumun gələn il artırılması nəzərdə tutulur. Lakin hələlik konkret rəqəmlər məndə yoxdur.

- Bu günlərdə keçmiş məcburi köçkünlər üçün tikilmiş mənzillərin hərrac yolu ilə satışa çıxarılması qaydası təsdiqlənib. Amma bu məsələ cəmiyyətdə birmənalı qarşılanmır. Sizcə, həmin mənzilləri hərrac yolu ilə deyil, sosial cəhətdən zəif təbəqəyə xüsusi güzəştli şərtlərlə təklif etmək daha məqsədəuyğun olmazdımı?

- Hesab edirəm ki, hərrac ən doğru yoldur. Təbii ki, istənilən layihə, yenilik həmişə cəmiyyətdə birmənalı qarşılanmır. Bunu da normal qarşılayıram. Bir daha vurğulayıram ki, hərrac daha doğru yoldur. Hərracdan yığılan vəsait daha çoxdur və həmin vəsaitlə biz ilk növbədə şəhid ailələri, qazilərin mənzil təminatını sürətlə yaxşılaşdıracağıq. Hökümətin prioritetləri var, əgər biz bu insanların sosial müdafiəsini təmin etsək, mənzil-məişət şəraitini yaxşılaşdırsaq, digər kateqoriyadan olan insanlara da növbəti addımlarda yəqin ki, daha geniş imkanlar açılacaq. O cümlədən MİDA-nın xətti ilə tikilən sosial evlər var, onların da şərtlərini yumşaltmaq olar.

Bundan başqa ipoteka şərtlərini yumşaltmaq olar ki, insanların sosial vəziyyətinə uyğun olaraq ipoteka faizləri aşağı salınsın. Digər tərəfdən, hesab edirəm ki, sosial evlər layihəsini stimullaşdırmaqdan ötrü hökümət tərəfindən müəyyən addımlar atılmalıdır. Xüsusilə sahibkarlar bu məsələdə maraqlandırılmalıdır ki, onlar bu cür evlər tikməkdə həvəsli olsunlar.

Əgər bizim müvafiq qurumlar sahibkara torpağı pulsuz verərlərsə, bütün sənədləşmə işini dövlət orqanları özləri həyata keçirərlərsə və sahibkara təkcə tikinti işini aparmaq qalarsa, bu da özü sosial bir layihədir. Hər bir sosial layihədə gərək dövlət güzəştə getsin və ordan pul qazanmaq barədə düşünməsin. Eyni zamanda, sahibkar da başa düşsün ki, onun da sosial məsuliyyəti var. Tutaq ki, başqa bir layihədən 20 faiz pul qazanırsa, burdan 5 faiz pul qazananda düşünürəm ki, cəmiyyət üçün daha faydalı iş görmüş olacaq. Bu da onun digər mənəvi qazancı olacaq.

✍ ***Sevinc***

Pensiyalar artırılacaq

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli Sərəncamı ilə qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının (dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslər və s.) pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə dair təkliflər Milli Məclisdə müzakirəyə çıxarılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əmək pensiyaları haqqında" Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdirilərək artırılması mexanizmi tətbiq ediləcək.

Nazirlikdən hafta.az-a verilən xəbərə görə, bu ildən xüsusi şərtlərlə pensiya alan şəxslərin aylıq pensiyalarına ödənilən 10%, həmçinin digər pensiyaçılara il ərzində ödənilən 200 manat maddi yardım onların pensiyalarının tərkibinə daxil edildikdən sonra yekun pensiya məbləğləri orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdiriləcək. Misal üçün, 400 manat pensiya və il ərzində 200 manat maddi yardım alan pensiyaçının pensiya məbləği yeni ildən 416,7 manat (400+200/12) qəbul edilərək, üzərinə indeksasiya faizi qədər artım hesablanacaq. Həmçinin xüsusi şərtlərlə pensiya alan hərbi qulluqçunun cari il ərzində aldığı, misal üçün, 800 manat pensiya və 10%-lik maddi yardım toplanaraq, 880 manat kimi qəbul ediləcək, üzərinə indeksasiya faizi qədər artım hesablanacaq.

Vahid indeksasiya mexanizminin tətbiqi xüsusi şərtlərlə pensiyaya çıxan şəxslərin pensiyalarında davamlı artımı şərtləndirəcək. Belə ki, son 10 ildə bu kateqoriyadan olan şəxslərin böyük əksəriyyətinin pensiyası maksimum 70% artıb. Ümumi əsaslarla pensiyaya çıxan şəxslərin pensiyaları isə bu müddət ərzində indeksasiya nəticəsində 98% artıb.

Pensiyaların indeksləşdirilərək artırılması elektron qaydada həyata keçirilir. Xüsusi şərtlərlə pensiyaların da bu metodla artırılması, həm də aidiyyəti qurumların bu sahədə inzibatçılığının yüngülləşdirilməsinə, əməkhaqqı artımı ilə bağlı hər hansı məlumat təqdim etmə öhdəliyinin aradan qalxmasına imkan yaradacaq. Beləliklə, layihə qəbul ediləndən sonra - qulluq əlavəsi alan şəxslərin pensiyası hazırkı mexanizmlə müqayisədə daha çox artacaq. İndeksasiya bütün pensiya məbləğlərinə - həm qulluq əlavəsinə, həm də sığorta hissəsinə şamil ediləcək; pensiyaların məbləği hər il vahid qaydada - indeksləşdirilərək artırılacaq (qulluq əlavəsi alanların pensiyası təqribən 3-5 il intervalı ilə artırdı); dövlət qulluqçusu, hərbi qulluqçu və digər bu kateqoriyadan olan şəxslərə pensiya təyin edildikdən sonra 6 il işlədikdə və ya işdən çıxdıqda, topladıqları kapitala əsasən pensiyalarının ümumi məbləği yenidən hesablanaraq artırılacaq; pensiyaçılar və onların xidmət keçdiyi qurumların əməkhaqqının artımı ilə bağlı məlumat təqdim etmək öhdəliyi aradan qalxacaq; bütün pensiyaların indeksləşdirilməsinin tamamilə elektron qaydada aparılması təmin olunacaq. Bu layihə xüsusi şərtlərlə pensiyaya çıxma şərtlərinə və təyinatına şamil edilmir.

■ Aİ enerji asılılığını aradan qaldırmaq üçün Azərbaycanla işləyir. Bu barədə Belçikadan olan "New Direction" beyin mərkəzinin icraçı direktoru Vitold de Çevilli Azərbaycan beyin mərkəzlərinin I Forumunda deyib.

"Enerji asılılığının aradan qaldırılması və problemin həll olunması istiqamətində Aİ digər tərəfdaşlarla işləyir ki, bunlar arasında Azərbaycan da var. Avropa həmçinin, Mərkəzi Asiya regionunun potensialı ilə də maraqlanır. Lakin bu əməkdaşlıq üçün Qərblə Şərq arasında koridorun yaradılması vacibdir. Burada isə Zəngəzur dəhlizinin vacibliyi bir daha meydana çıxır", - Vitold de Çevilli qeyd edib. O, çıxışında azad olunmuş ərazilərdə yeni infrastrukturun qurulması, nəqliyyat layihələrinin sürətlə tikilməsini də vurğulayıb.

■ Ölkə əhalisinin 2,3 milyon nəfərini və ya 22,1 faizini gənclər təşkil edir. Bu barədə "Azərbaycan gəncləri" statistik məcmuəsində qeyd edilib.

Bildirilib ki, gənclərin 50,5 faizi şəhər yerlərində, 49,5 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 47,5 faizini qadınlar təşkil edir. 2021-ci ildə 15-29 yaşda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 81,6 min nəfər olub və bütövlükdə doğulan körpələrin 72,7 faizi gənc anaların payına düşüb.

Ötən il ölkədə nikaha daxil olanların 72,9 faizini gənclər təşkil edib. İlk dəfə nikaha daxil olan kişilərin orta yaşı 28, qadınların isə 24-dür. Boşananlar arasında gənc kişilərin xüsusi çəkisi 18,1 faiz, gənc qadınların xüsusi çəkisi isə 38,6 faiz olub.

■ Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) yüksək enerji qiymətlərinin yaxın perspektivdə Azərbaycanda iqtisadi artımı dəstəkləyəcəyini proqnozlaşdırıb.

Bu barədə AYİB-dən bildirilib. Qeyd edilib ki, Azərbaycanda qeyri-neft sektorunun güclü göstəriciləri 2022-ci ilin ilk yeddi ayı ərzində 6,2 faiz artıma səbəb olub. Karbohidrogen qiymətlərinin artması ixrac gəlirlərini demək olar ki, iki dəfə artırıb, cari hesabda və büdcədə böyük profisit yaradıb. Bununla belə, 2022-ci ildə Cənubi Qafqaz regionu üçün qeydə alınan güclü iqtisadi artım 2023-cü ildə azalacaq. Azərbaycan üçün qeyri-müəyyənlik həm enerji qiymətlərindən, həm də inflyasiyadan qaynaqlanır. Azərbaycan iqtisadiyyatının bu il 4,5 faiz artacağı, gələn il isə 2,5 faizə qədər yumşalacağı proqnozlaşdırılır.

■ Azərbaycanda internetə çıxışla bağlı problem yoxdur. Bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti Rasim Əliquliyev deyib.

Onun sözlərinə görə, Azərbaycanın demək olar hər bir vətəndaşı internet və internet xidmətlərinin istifadəçisidir. "Bizim öz kosmik peyklərimiz, müvafiq kadr potensialımız, mütəxəssislərimiz var", - deyə o bildirib. O, həmçinin beynəlxalq elmi platformalara qoşulmaq üçün müvafiq elektron tədrisin, elektron kitabxananın yaradılması, bu sahə üzrə mütəxəssislərin hazırlanmasının zəruriliyini vurğulayıb. R.Əlquliyev qeyd edib ki, Aİ 2030-cu ilədək rəqəmsal inkişaf strategiyası hazırlayıb.

■ Azərbaycan və Ermənistan arasında sülh sazişi hələ də imzalanmayıb. Bütün bunun günahkarı təbii ki, kənardan manipulyasiyalara uyan Ermənistandır. İnanırıq ki, Ermənistan nəhayət sağlam qərar verə biləcək və sülhə gələcək.

Bunu Avrasiya Araşdırma Mərkəzinin (AVİM) direktoru türkiyəli diplomat Alev Kılıç sentyabrın 28-də Azərbaycan Beyin Mərkəzlərinin I Forumu çərçivəsində "Azərbaycanda beyin mərkəzləri və onların qarşısında duran məsələlər" mövzusunda panel müzakirələrdə deyib. A.Kılıç bildirib ki, Cənubi Qafqaz əlverişli coğrafi mövqedə yerləşir və biz də bu regionun bir parçasıyıq: "Sülh və davamlı inkişaf naminə səylərimizi birləşdirməli və yol xəritəmizi müəyyənləşdirməliyik", - politoloq deyib.

■ Azərbaycanda 2021-ci ildə boşanmış şəxslərin cins və yaş qrupları üzrə bölgüsü açıqlanıb. Dövlət Statistika Komitəsinin (DSK) açıqladığı rəsmi göstəricilərə əsasən, ötən il ümumilikdə 17191 nəfər boşanıb. Onlarda 3107-si 15-29 yaşda olanlardır.

O cümlədən 18-19 yaşda boşananlar 2 nəfər, 20-24 yaşda boşananlar 421 nəfər, 25-29 yaşda boşananlar isə 2684 nəfərdir. Rəsmi məlumata görə, 20-24 yaşda boşananlar ümumi boşananların 2,5 faizini, 25-29 yaşda boşananlar isə 15,6 faizini təşkil edib. Rəsmi göstəricilərə görə, 5 il sonra nikahı sonlandıranlar kişilər 2275 nəfər, 5-9 il sonra sonlandıranlar 814 nəfər, 10 il sonra boşananlar isə 18 nəfər olub. 5 il sonra boşanan qadınlar 3615 nəfər, 5-9 il sonra boşananlar 2592 nəfər, 10 il sonra boşananlar isə 435 nəfər olub.

Lazımlı ixtisaslar ləğv edilib

Elşad Məmmədov,
Odlar Yurdu Universitetinin kafedra müdiri, iqtisadçı ekspert, professor

Odlar Yurdu Universitetinin kafedra müdiri, iqtisadçı ekspert, professor Elşad Məmmədov hafta.az-a bu dəfəki müsahibəsində bu yaxınlarda ölkə Prezidentinin müvafiq Fərmanı ilə ad dəyişikliyinə uyğun olaraq formalaşmağa başlamış Elm və Təhsil Nazirliyinin məsul olduğu elm və təhsil sahələrində qarşısında duran problemlər, icra edəcəyi dəyişiklik və yeniliklər haqda danışdı, bəzi sahələrlə bağlı açıq tənqidi münasibətini ifadə etdi.

Müsahibə

- Elşad müəllim, yeni 2022-2023-cü tədris ilinin əsas görünən yeniliklərindən biri Təhsil Nazirliyinin adının dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlanması və təbii ki, həmin qurumda buna uyğun struktur dəyişiklikləridir. Bu dəyişikliklər özünü hansı forma, məzmun və mahiyyətdə büruzə verməkdədir və verəcək?

- Zənnimcə, Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin sosial yönümlü olması və ölkə Prezidentinin bu məsələlərin həllində nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın bir çox xarici iqtisadi təsirlərdən qorunmasına şərait yaratdı. Belə ki, pandemiya məhdudiyyətlərində də biz bunu açıq-aşkar gördük ki, bir çox ölkələrdən fərqli olaraq ölkəmizdə hansısa dərin böhran yaşanmadı. Həmçinin 44 günlük müharibə dövründə biz milli iqtisadiyyatımızın qüdrətinin bütün dünyaya nümayiş etdirilməsinin şahidi olduq. Eyni zamanda dünya iqtisadiyyatında son onilliklər ərzində baş verməkdə olan ən dərin böhranlar zamanı da milli iqtisadiyyatımızın idarəolunan formatda olması özünü göstərdi. Xarici iqtisadi və siyasi təsirlərin ölkəmizə həlledici dərəcədə mənfi təsir göstərməməsinin də şahidi olduq ki, bu da sözsüz ki, ölkədəki effektiv sosial-iqtisadi siyasətlə bağlıdır. Amma həmin sosial-iqtisadi siyasətin dayanıqlı olması üçün onun fiundamental əsaslarından biri ölkənin elmi potensialının inkişaf etdirilməsi olmalıdır, ölkədə insan potensialıyla bağlı istiqamətlərin fundamental və tətbiqi inkişafıyla, iqtisadiyyatın müxtəlif sahələri üzrə elmi potensialın reallaşdırılmasıyla bağlı olmalıdır. Hesab edirəm, bu istiqamətlər üzrə son illər və onilliklər ərzində mövcud olmuş boşluqlar institusional islahatların da olmasını və elm və təhsilin də idarə edilməsində yeni yanaşmaların tətbiqini zəruri etdi. Elm və Təhsil Nazirliyinin yaradılmasının da əsas səbəbini məhz bunda görürəm. Sizin sualınızda, zənnimcə, çox düzgün qoyduğunuz "forma, məzmun və mahiyyətcə" məsələsi ki, var, hesab edirəm ki, yeni Nazirlik sadalanan hər 3 istiqamətdə ölkə qarşısındakı insan kapitalının inkişafıyla və konkret olaraq elmin, təhsilin inkişafı ilə bağlı olan çağırışlara cavab verməli və həmin çağırışlara uyğun siyasət həyata keçirməlidir. Bilavasitə elm və təhsilin inkişafına cavabdeh olan bu qurum olacaq. Ona görə də forma, mahiyyət və məzmunca yeni Nazirlik həm fundamental, həm sahəvi, həm də tətbiqi-elmi araşdırmaların effektivliyinin artmasını təmin etməlidir. Sahəvi elmi qurumlar belə, öz fəaliyyətini Elm və Təhsil Nazirliyi ilə əlaqələndirməlidir.

Ona görə ki, bu qurum Azərbaycanda həyata keçirilən bütövlükdə elm, təhsil siyasəti sahəsində öz məsuliyyətini təmin etməlidir. Bu baxımdan bu Nazirlik həm forma, həm mahiyyət, həm də məzmunca sürətlə dəyişən çağırışlara çevik reaksiya verə bilən effektiv və operativ fəaliyyət göstərməyə qadir olan bir qurum kimi fəaliyyət göstərməli və zənnimcə, bu, Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişafının əsas təminatçısı kimi çıxış etməli olan bir mexanizm şəklində işləyən bir sistemə çevrilməlidir...

- Konkret olaraq sizin də çalışdığınız ali təhsil, o cümlədən ali iqtisadi təhsil sahəsindəki hansı problemlərin həlli yeni Nazirlik qarşısında zəruri vəzifə kimi durur?

- Mən ölkəmizin ali təhsil sistemində uzun illər ərzində müxtəlif vəzifələrdə çalışmışam və çalışmaqdayam. İqtisadçı olduğum üçün də, xüsusilə, ali iqtisadi təhsil sahəsinə fokuslaşmışam. Və yəqin ki, ali təhsil, xüsusən ali iqtisadi təhsil sistemində baş verən proseslər barədə əsaslı fikirlər bildirməyə haqqım var. Çox təəssüf ki, ölkəmizin ali iqtisadi təhsil sistemi bugünkü reallıqlar çərçivəsində formalaşan çağırışlara cavab vermir. Biz Azərbaycanın ali iqtisadi təhsil sisteminin istər ölkədə, istər bölgədə, istərsə də dünyada baş verən iqtisadi-sosial proseslərlə bağlı effektiv reaksiyasını görmürük. Və sözügedən sistemin nəinki effektiv reaksiyasını, qeyd etdiyimiz baş verən proseslərin təhlilinə belə, yaxın düşməsinin şahidi ola bilmirik. Bu, çox acınacaqlıdır və hesab edirəm ki, bunun nəticələrini ölkəmizin iqtisadiyyatı yaxın illərdə görə bilər...

- Ali iqtisadi təhsil sistemindəki çatışmazlıqlar ilk növbədə özünü nələrdə büruzə verir?

- Bir sıra konkret misallar gətirmək istəyirəm ki, geniş auditoriya onlardan bilgili olsun və Azərbaycan ictimaiyyəti özü nəticə çıxarsın, həmçinin, aidiyyati dövlət qurumları həmin məsələlərə lazım olan səviyyədə diqqət yetirsin... Nə qədər məntiqsiz görünsə də, Azərbaycanda bakalavriat səviyyəsində dünya iqtisadiyyatı ixtisası ləğv olunub. Bəs bu halda biz ali iqtisadi təhsil sistemimiz tərəfindən dünyada baş verən mürəkkəb iqtisadi proseslərin təhlil edilməsinə necə çalışacağıq? Bu, necə dəyərləndirilməlidir və həmin qərarı qəbul etmiş vəzifəli insanlar buna necə izahat verə bilər? Bəhs edilən məsələni bir qədər də maraqlı edən odur ki, doktorantura səviyyəsində dünya iqtisadiyyatı ixtisası var. Sanki binanın üst mərtəbələri tikilir, alt mərtəbələri isə sökülür Bir sözlə, çox müəmmalı yanaşmadır.

Digər tərəfdən, beynəlxalq ticarət və loqistika ixtisası tədris prosesinə daxil edilib, amma ticarət ixtisası ləğv olunub. Sual edilir: ticarət olmadan beynəlxalq ticarət mövcud ola bilərmi? Və istər idxal, istər ixrac olsun, beynəlxalq ticarətin məntiqi nəticəsi, məntiqi yekunu daxili ticarət olmurmu? Yəni belə bəsit məsələləri bizim iqtisadi təhsilin rəhbərlyində olan insanlar dərk etmirmi?..

Bir misal da deyim: biznesin idarə edilməsi ixtisasında binesin əsasları fənni tədris planına əsas yox, seçmə fənn kimi daxil edilib. Yəni belə çıxır ki, tələbə biznesin idarə edilməsi üzrə mütəxəssis olacaq, amma biznesin əsasları fənnini keçməyə də bilər. Bəs o halda həmin tələbə 4 il ərzində biznesin əsaslarını bilmədən biznesin idarə olunması üzrə necə mütəxəssis kimi yetişə bilər? Yəni bu qədər sadə suallara cavab tapmaq mümkün olmadığı halda hansısa beynəlxalq reytinqlərin arxasınca qaçmaq, hansısa xarici jurnallarda məqalələri reklam etmək və s. ümumiyyətlə, ali iqtisadi təhsil sistemi üzərində çox təhlükəli eksperimentlər aparılması demək deyilmi?..

> *Biz Azərbaycanın ali iqtisadi təhsil sisteminin istər ölkədə, istər bölgədə, istərsə də dünyada baş verən iqtisadi-sosial proseslərlə bağlı effektiv reaksiyasını görmürük*

Daha bir ciddi boşluğu diqqətə çatdırmamaq olmur: Azərbaycanda 26 kommersiya bankı fəaliyyət göstərir və ölkəmizin bank sektorunun inkişafı bu gün, hesab edirəm ki, iqtisadi siyasət nöqteyi-nəzərindən ən həssas və ağrılı istiqamətlərdən biridir. Fəqət, ölkədə bank işi ixtisası bakalavr səviyyəsindəki iqtisadi təhsilin əsasını qoyduğu halda həmin ixtisas ləğv olunur. Yəni düşünürəm ki, bunun hansı məntiqə əsaslanmasının təhlili üçün elə də dərin biliklərə malik olmaq tələb edilmir. Bax belə, dərin, bir tərəfdən gülməli, digər tərəfdən isə kədərlənməli olan problemlər var ki, onların mövcudluğu ali iqtisadi təhsil sistemimizin Azərbaycanın milli iqtisadiyyatımızın inkişaf göstəricilərinə açıq-aşkar uyğun olmamasının göstəricisidir.

Hesab edirəm ki, sadalanan problemlər həm ictimai müstəvidə, həm də dövlət qurumları, o cümlədən Elm və Təhsil Nazirliyi səviyyəsində qaldırılmalıdır. Və mən bir mütəxəssis olaraq məsələnin ciddiliyini nəzərə alıb onun hər iki sözügedən müstəvidə müzakirələrinin təşkilində bilavasitə iştirak edəcəyəm. Ali iqtisadi təhsil sistemimizdəki bu problemlər olduqca mühümdür və düşünürəm ki, həmin məsələlərlə bağlı məsuliyyət daşımalı olan insanlar aidiyyatı olaraq mütləq məsuliyyətlərini dərk etməli və onu daşımalıdırlar... Elm və Təhsil Nazirliyi də mütləq qeyd edilən problemlərin həllinə nail olmalıdır...

- Elm və təhsilin inkişafına cavabdeh olan yeni Nazirliyin icra edəcəyi dəyişiklik və yeniliklər Azərbaycanın elm və təhsil müəssisələrinin yaxın gələcəkdə müasir beynəlxalq reytinqlər cədvəlində öncül yer tutmasına da şərait yarada biləcəkmi?

- Bundan əvvəllki sualınıza cavabımda da bu məsələyə toxundum. Sözsüz ki, beynəlxalq reytinqlər ölkənin təhsil sferasının nöqteyi-nəzərindən, elm mərkəzlərinin inkişafı, beynəlxalq məkana çıxışı baxımından müəyyən rol oynamaqdadır. Bununla yanaşı, elmimizin, təhsilimizin inkişafının ilk növbədə milli iqtisadiyyatımızın inkişafına, ölkəmizin ictimai, siyasi, sosial, iqtisadi qüdrətinin artmasına xidmət etməsinə nail olmalıyıq. Yəni öncə bizim üçün əsas hədəflər hansısa beynəlxalq reytinqlər yox, dövlətimizin, o cümlədən milli iqtisadiyyatımızın gücləndirilməsi olmalıdır. Bu, olduqca önəmlidir. Hesab edirəm ki, yanaşmada sözsüz prioritet kimi bu qəbul olunmalıdır. Biz praktiki olaraq elm mərkəzləri və təhsil müəssisələri ölkəmizin qüdrətinin, rəqabət qabiliyyətliliyinin artmasına necə töhfə verə biləcəyini hesablamalıyıq. Bax, zənnimcə, bu məsələ Elm və Təhsil Nazirliyinin, eləcə də ölkədə fəaliyyət göstərən konkret elm və təhsil müəssisələrinin əsas fəaliyyət fokusunda olmalıdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycanın daxili və regional reytinq sistemlərinin qurulmasında fəallığının artırılması zəruri istiqamətlərdən biridir. Son illərdə biz beynəlxalq reytinq sistemlərinin nə dərəcədə manipulyasiyalara səbəb olmasının şahidi oluruq. Bu prizmadan yanaşdıqda biz dövlətimizin iqtisadi sahədə və bütövlükdə qüdrətinin artırılması nöqteyi-nəzərdən, sözsüz ki, xarici iqtisadi və siyasi təsirlərdən effektiv şəkildə qorunmasını təmin etməliyik. Ona görə də əgər biz elm infrastrukturunu, təhsil bazasını dayanıqlı şəkildə inkişaf etdirə bilsək, sözsüz ki, beynəlxalq reytinqlər də buna nə qədər müqavimət olsa da, reaksiya verməli olacaq. Digər tərəfdən də dövlətimizin rəqabət qabiliyyətliliyi o səviyyədə artacaq ki, faktiki olaraq bu bir reallığa çevriləcək və Azərbaycanın insan kapitalı ilə bağlı sferalarında dayanıqlılıq təmin olunacaq. Bunun üçün, sözsüz ki, innovativ tutumlu iqtisadiyyatın formalaşması və inkişaf etməsi zəruridir. Zənnimcə, Elm və Təhsil Nazirliyinin əsas missiyalarından biri də məhz rəqabət qabiliyyətli insan kapitalının formalaşmasında ölkə hökumətinə, ölkə rəhbərliyinə müfaviq bazanın təqdim edilməsi olmalıdır. Ona görə də daxili elmi və təhsil inkişafı ilə bağlı dayanıqlı, müsbət nəticələrə nail olmalıyıq ki, bunun da bünövrəsi ölkəmizin güclü elm və təhsil generasiya mərkəzlərinin yaradılması olmalıdır...

✍ ***Sultan Laçın***

Xarici ölkəyə qanunsuz pul köçürənlər 5 il həbs ediləcək

Azərbaycandan xarici ölkələrə qanunsuz pulköçürmə fəaliyyəti ilə məşğul olan şəxslər 5 il müddətinə azadlıqdan məhrum ediləcək. Bu, sentyabrın 22-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında birinci oxunuşda müzakirəyə çıxarılmış Cinayət Məcəlləsində dəyişiklikdə əksini tapıb.

Dəyişikliklə məcəlləyə yeni 206-1-ci maddə (Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma) əlavə edilib.

Yeni maddəyə əsasən, Məcəllənin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olmadan, əvəzləşdirmə və ya digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər xeyli miqdarda törədildikdə cinayətin predmetinin dəyərinin 40 faizi miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin 40 faizi miqdarında cərimə edilməklə 2 ildək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılacaq.

Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə və külli miqdarda törədildikdə cinayətin predmetinin dəyərinin 40 faizindən 60 faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin 40 faizi miqdarında cərimə edilməklə 2 ildən 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

Məcəllənin 206-1.1 və 206-1.2-ci maddələridə nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə cinayətin predmetinin dəyərinin 40 faizindən 60 faizinədək miqdarında cərimə edilməklə 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Məcəlləyə dəyişiklik layihəsi parlamentin plenar iclasına tövsiyə olunub.

Rəsmi Moskvanın dünyanı Ukraynaya nüvə silahı atacağı ilə hədələməsi hazırda ən çox müzakirə olunan məsələlərdəndir. Belə ki, Putin ötən həftə bu məsələyə yenidən toxunaraq bəyan edib ki, ölkəsinin ərazi bütövlüyü təhdid edilərsə, bütün vasitələrdən istifadə edəcəklər: "Ölkəmizin ərazi bütövlüyü təhdid edilərsə, Rusiyanı və insanlarımızı müdafiə etmək üçün bütün vasitələrdən istifadə edəcəyik. Bu, blef deyil". Kreml rəhbərinin nüvə silahından istifadə edib-etməyəcəyi ilə bağlı dəfələrlə yerli və beynəlxalq ekspertlər tərəfindən müxtəlif açıqlamalar verilib. Regiona yaxın coğrafi mövqedə yerləşdiyimizi nəzərə alsaq, nüvə silahından istifadənin Azərbaycan üçün hansı fəsadlar yaradıb-yaratmayacağı ciddi narahatlıq doğurur.

Nüvə təhlükəsi - bizi təhdid edirmi?

Maraqlıdır, Rusiya əgər Ukraynaya nüvə silahı atarsa, bunun Azərbaycana ekoloji cəhətdən hansı fəsadları ola bilər? Bizi hansı təhlükə gözləyir?

Yeri gəlmişkən, qeyd edək ki, nüvə silahları bütün ölkələr üçün qorxuludur. Bu baxımdan belə silahı olan ölkələr digərləri üzərində istədikləri şəkildə hegemonluq edə bilirlər. Stokholm Beynəlxalq Sülh İnstitutu və Amerika Elm Adamları Federasiyasının birgə apardığı araşdırmalara görə, hazırda dünyada 9 ölkədə nüvə silahı var. Siyahıya Rusiya rəhbərlik edir. Altı min 850 nüvə silahı olan Rusiyada Prezident Vladimir Putin bu silahları istədiyi kimi istifadə etmək hüququna malikdir.

> *Bu, tək ölkəmizdə deyil, bütün bəşəriyyətdə böyük faciə yarada bilər*

Onu da xatırladaq ki, Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə ABŞ aviasiyası tərəfindən atılan atom bombası bəşər tarixində nüvə silahının hərbi məqsədlə tətbiq olunduğunun ilk və yeganə nümunəsidir.

Bu, İkinci dünya müharibəsinin sonlarında Sakit okean cəbhəsində aparılan hərbi əməliyyatlar çərçivəsində ABŞ Silahlı Qüvvələri tərəfindən Yaponiyanın kapitulyasiyasını sürətləndirmək məqsədilə həyata keçirilib. Atom bombası böyük partlayışlara və onminlərlə insanın ölümünə səbəb olub.

Ekspertlər bildirirlər ki, hazırda ABŞ və Rusiyanın arsenalında olan nüvə başlıqları əgər müharibədə tətbiq olunarsa, iqlim fəlakətləri, faciəvi nəticələr, elmi dildə "nüvə qışına" səbəb olacaq. Çox kiçik miqyasda və cəmi 2-3 dəfə atılacaq nüvə raketi regionda yüzlərlə yanğın törədəcək ki, yanğınlardan strotosferə atılan qazlar Günəş işığını blok edib, dünyanın böyük qismində "qış alatoranlığı" yarada bilər. Nüvə müharibəsi o deməkdir ki, insanlar tüstü və zəhərli hava ilə nəfəs alacaq, içməli su təminatı məhv olacaq. Əksər insanlar nüvə partlayışı ərazisində olmasa da, sonradan "nüvə qışı"nın təsirindən ciddi ərzaq və su çatışmazlığına görə acından öləcək. Kiçikərazili regional nüvə müharibəsi - indiki halda Rusiya Ukrayna və ya Avropa sərhədlərinə tətbiq edərsə, qlobal miqdasda 50 milyon insanın acından ölməsinə gətirib çıxara bilər. Qlobal faciə indiki və gələcək nəsillərin də sağlamlığına ciddi təhlükə olacaq.

■ **Rusiyanın Ukraynaya nüvə silahı atacağı təqdirdə, bunun Azərbaycanda hansı ekoloji fəsadlara səbəb ola biləcəyini hafta.az-a şərh edən "Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq, dosent Elman Yusifov bildirir ki, bu, təkcə ölkəmizdə deyil, bütün bəşəriyyətdə böyük faciə yarada bilər:**

"Əgər Rusiya Ukraynaya nüvə silahı atarsa, təbii ki, qarşı tərəfdən də buna cavab gələcək. Bu, böyük faciəyə səbəb ola bilər. Radiasiya yağıntıları torpağı tamamilə çirkləndirəcək.

Bitki örtüyü məhv olacaq, insanların həyatı çox böyük təhlükə altında qalacaq. Su mənbələri zərəhlənəcək, su mənbələrindən qidalan bütün bitkilər, heyvanlar, o cümlədən insan radioaktiv çirklənmələrə məruz qalacaq. Yəni, bu, region üçün fəlakətli hadisələrə yol açа bilər".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Radiasiya Problemləri İnstitutunun icraçı direktoru, fizika-riyaziyyat elmləri namizədi, dosent Rəvan Mehdiyev vurğulayıb ki, bu hadisə nəinki Azərbaycan, digər ölkələr üçün də ciddi faciələrə səbəb ola bilər:**

> *Çernobılda hələ də orada inəklərin südündə radiasiya aşkar edilir*

"Hələ Zaporojye Atom Elektrik Stansiyasına hansısa təxribat olarsa, bu, bütöv regionun radiasiyaya məruz qalması deməkdir. Məsələn, götürək Çernobılda baş verən hadisəni. Bu hadisədən 30 ildən çox vaxt keçməsinə baxmayaraq, yenə də orada inəklərin südündə radiasiya aşkar edilir. Yəni bu, böyük faciələrə yol açа bilər. İnanmıram ki, Rusiya o qədər ağılsızlıq edib belə bir hərəkət etsin. Rusiya özü Ukraynaya bizdən daha yaxındır. Sadəcə, bu formada danışmaqla dünyanı qorxudurlar. Ümumiyyətlə, bu hal baş verərsə, əsrin qəzası ola bilər".

✍ ***Sevinc***

İctimai nəqliyyatda qiymətlər bahalaşır?

Xəbər verdiyimiz kimi, ölkəmizdə sərnişindaşıma sektorunda fəaliyyət göstərən şirkətlər tariflərin artırılmasını istəyirlər. Bununla bağlı İqtisadiyyat Nazirliyinə kollektiv müraciət ünvanlanıb. Müraciətdə qeyd olunub ki, hazırda sərnişindaşımada mövcud olan gediş haqqı maliyyə xərclərinin qarşılanması üçün yetərli deyil. Vurğulanıb ki, ötən il dizel yanacağının qiyməti 33 faiz artırılaraq 80 qəpik müəyyən edilib. Bu növ yanacağın bahalaşmasının sahibkarlara təsirinin neytrallaşdırılması üçün ayrılan subsidiyanın məbləği isə yanacağın bahalaşması səbəbindən yaranan əlavə vəsait itkisinin cüzi hissəsini əhatə edir.

Aktual

Bundan əlavə, şirkətlər daşıdıqları sərnişin sayına görə toplanan vəsaitin 5 faizini "Bakıkart"a ödədiklərini və bunun kifayət qədər böyük faiz olduğunu bildiriblər. Məsələ ilə bağlı Tarif Şurasından bildirilib ki, müraciətdə qeyd olunanlarla əlaqədar optimal qərarın verilməsində kompleks yanaşmanın tələb olunduğunu nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə bu sahədə xidmətin davamlılığının və rəqabətin təmin edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə aidiyyəti dövlət qurumlarının, bu sahədə fəaliyyət göstərən iri təsərrüfat subyektlərinin nümayəndələrindən ibarət işçi qrupun yaradılması və qaldırılan məsələlərin həlli yollarının müəyyənləşdirilməsi üçün təkliflər hazırlanması tapşırılıb. Təkliflər hazırlanaraq hökumətə təqdim olunacaq.

Ekspertlər hesab edirlər ki, sərnişindaşıma sektorunda fəaliyyət göstərən şirkətlərin sözügedən müraciətindən sonra ictimai nəqliyyatda qiymətlər böyük ehtimalla artacaq. Bəs, görəsən, qiymət artımı neçə faiz ola bilər? Gözlənilən qiymət dəyişikliyinin iqtisadi əsaslandırması varmı?

■ **Məsələni hafta.az-a şərh edən iqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, 2021-ci ilin əvvəlindən etibarən nəqliyyat şirkətlərində, xüsusilə də kütləvi sərnişindaşımada xərclər əhəmiyyətli dərəcədə artıb:**

"Düzdür, cəmiyyətdə qiymət artımı birmənalı qarşılanmır. Amma cəmiyyət olaraq daha keyfiyyətli xidmət almaq istəyiriksə, həmin xidmətlərin qarşılığını ödəmək məcburiyyətindəyik. Məlum olduğu kimi, 2021-ci ilin əvvəlindən etibarən yanacaq qiymətlərinə edilən korrektələrdən sonra nəqliyyat şirkətlərində, xüsusilə də kütləvi sərnişindaşımada xərclər əhəmiyyətli dərəcədə artıb.

Təxminən xərclər istifadə edilən yanacaq növündən asılı olaraq 30-40 faiz artıb. Bu isə öz növbəsində təbii ki, xidmətin qiymətinin artırılması zərurətini formalaşdırıb. Əslində həmin dövrdə Tarif Şurasının qərarında qeyd olunurdu ki, kənd təsərrüfatı və kütləvi sərnişindaşımaya yaranmış xərc yükünün subsidiyalaşdırılması mexanizmi işlənib hazırlanacaq. Kənd təsərrüfatına bu istiqamətdə müvafiq dəstəyin göstərilməsi üçün addım atılsa da, nəqliyyat şirkətlərinə münasibətdə bu edilmədi. Və artıq təbii ki, indiki şərtlər daxilində müəyyən mənada şirkətlər çətinlik çəkirlər.

Düzdür, faktiki olaraq Azərbaycanda statistik göstəricilərin, şirkətlərin özünün məlumatlarının əlçatan olmaması, şəffaf olmaması səbəbindən tam olaraq maya dəyərini hesablayıb konkret rəqəm demək çox çətindir. Amma istənilən halda aydın olan bir məsələ var ki, xərc yükü artıb. Digər tərəfdən əməkhaqqı xərcləri də çoxalıb. Çünki çalışanlarla əvvəlki şərtlər daxilində, əvvəlki əməkhaqqı ilə işləmək olmur. Bu da təbiidir. Çünki qiymətlər sürətlə artır. Belə bir şəraitdə müvafiq xərclərin hansısa formada əvəzlənməsinə ehtiyac var". İqtisadçının fikrincə, müvafiq xərclərin kompensasiya edilməsi iki formada ola bilər:

"Birincisi, dövlət müəyyən mənada indiki sosial şəraiti nəzərə alaraq xərclərin bir hissəsini subsidiyalaşdırır və nəqliyyat şirkətlərinə birbaşa dəstək göstərir. Eyni zamanda, bunu bir alətə çevirir. Yəni, indiki prosesi hansısa formada şəffaflaşdırır. Tutaq ki, sərnişinə görə qiymət kompensasiyasının subsidiya növünün yaradılması və tətbiq edilməsi nəqliyyat şirkətlərinin daşıdığı sərnişin sayının qeydiyyatını dəqiq aparmasına gətirib çıxaracaq.

> *Şəhər nəqliyyatında, təxminən, 30-60 faiz civarında qiymət artımı ola bilər*

> *Həddindən artıq qiymət artımlarına, yəqin ki, hökumət icazə verməyəcək*

Çünki o zaman şirkət nə qədər çox sərnişin daşıdığını qeyd edəcəksə, o qədər də çox yardım almış olacaqdır. Bu bir tərəfdən hökümətin sosial məqsədlərə çatmasına, ikinci bir tərəfdən də sözügedən sahədə şəffaflaşmanın təmin edilməsinə gətirib çıxara bilər. Bu addım atılmadığı təqdirdə, məcburən ikinci formadan istifadə ediləcək. Yəni, müvafiq xərclərin maya dəyəri olaraq son istehlak qiymətinə ötürülməsinə gediləcək. Bu da o deməkdir ki, xidmətin alıcısı, yəni sərnişin həmin xərcləri ödəməlidir.

İndiki şərtlər daxilində ehtimal olunur ki, hökümət sərnişindaşıma şirkətlərinə dəstək göstərməyəcək. Ola bilər ki, müvafiq məsələni bir neçə həftə, bir neçə ay müəyyən bir dövrdə ləngitməyə, yaranmış qiymət təzyiqi yükünü vətəndaşlara ötürməyə çalışsın".

Qiymət artımının neçə faiz civarında baş verə biləcəyinə gəlincə, ekspert qeyd edib ki, şəhər nəqliyyatında təxminən 30-60 faiz civarında qiymət artımı ola bilər: "Tutaq ki, 30 qəpiklik xidmətləri 40-50 qəpiyə bahalaşdıra bilərlər. Amma burada söhbət təkcə şəhər nəqliyyatından getmir.

Biz nəzərə almalıyıq ki, artımlar şəhərlərarası nəqliyyata da şamil olunacaq. Ümumilikdə isə qiymət artımı ilə bağlı qərar olarsa, bu minimum 30 faiz civarında baş verəcək".

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, artımın nə qədər olacağı Tarif Şurasının səlahiyyətindədir: "Ehtimal var ki, qiymətlər 10 qəpik arta bilər. Yəni, 40 qəpik ola bilər. Amma bunun üçün mənim dəqiq hesablamam yoxdur.**

Artımın nə qədər olacağı Tarif Şurasının səlahiyyətindədir. Qiymət dəyişikliyinin iqtisadi əsaslandırmasına gəlincə, artıq müəyyən müddətdir ki, sərnişindaşımada qiymətlər stabil saxlanılıb. Bu sektorda dövlətlə bərabər özəl sektor iştirak edir. Özəl sektorda xərclər artıb. Xərcləri artıran əsas səbəb isə xatırlayırsınızsa, 2021-ci ilin əvvəlindən dizelin qiyməti 60 qəpikdən 80 qəpiyə qaldırılıb. Bundan sonra sərnişindaşıma şirkətləri şikayət etsələr də, onların şikayətinə baxılmadı. Hazırda şirkətlər indiki şərtlər çərçivəsində nə yeni avtobuslar ala bilirlər, nə cari öhdəliklərini icra edə bilirlər. Bu fəaliyyət rentabelsiz bir sahəyə çevrilib. Düzdür, dövlət zaman-zaman məsələyə müdaxilə edib. Məsələn, "BakuBus"ı yaradıb. Amma dövlət bütün sektoru milliləşdirə bilməz, bu səmərəli olmaz. Zatən, "BakuBus"a 10 milyonlarla investisiya yatırılıb, büdcədən pul xərclənib. Həmin yardımlardan özəl sektora da edilsəydi eyni səviyyədə inkişaf baş verə bilərdi. Bu baxımdan xərclərin artması səbəbindən sərnişindaşımada bir sərnişinin daşınma xərci artıb. Təbii ki, Tarif Şurası bu məsələyə yenidən baxmalıdır, xərcləri yenidən analiz etməlidir. Amma bilirik ki, əhalinin həssas təbəqəsi kütləvi ictimai nəqliyyatdan geniş istifadə etdiyinə görə, burada həddindən artıq qiymət artımlarına yəqin ki, hökümət icazə verməyəcək".

✍ ***Sevinc***

HƏFTƏ REYTİNQ

Həftənin TƏYİNATI

Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) İdarə Heyətinin sədrinə iki yeni müavin təyin edilib. Qurumdan verilən məlumata görə, ASCO-nun Hüquq departamentinin rəisi Zaur Nağıyev və Strateji inkişaf və investisiya layihələri departamentinin rəisi Tariyel Mirzəyevə sədr müavinləri vəzifəsi həvalə olunub.

Həftənin VƏTƏNDAŞI

ABŞ-ın Milli Təhlükəsizlik Agentliyinin keçmiş əməkdaşı Edvard Snoudenə Rusiya vətəndaşlığı verilib. Bu haqda Rusiya Prezidenti Vladimir Putin fərman imzalayıb. Qeyd edək ki, 2013-cü ildə sızdırıdığı sənədlərlə ABŞ-ın Britaniya kəşfiyyatı ilə bütün dünyada telefon dinləmələri apardığını ortaya qoyan Snouden həmin ildən Rusiyada daimi yaşayış icazəsi ilə yaşayır.

Həftənin VARLISI

"Forbes"in 41-ci dəfə açıqladığı ABŞ-ın 400 ən varlı iş adamı siyahısına görə, bu il ilk dəfə "Tesla" və "SpaceX" texnologiya şirkətlərinin sahibi olan İlon Mask keçən ilə görə sərvətini 60 milyard dollardan çox artıraraq birinci yeri tutub. 4 il ard-arda birinci yerdə olan keçmiş "Amazon" CEO-su Ceff Bezos ikinci yerə çıxıb. ABŞ-ın ən varlı iş adamları siyahısında ilk 20 nəfərin 1,6 trilyon dollar dəyərindəki sərvəti "Forbes 400" ün ümumi sərvətinin 40 faizinə uyğun gəlir.

Həftənin ETİRAFI

"Ermənistan çətin və ağrılı qərarlar qarşısındadır, həm Azərbaycan, həm də Türkiyə ilə müqavilələr imzalamalı olacaq". Bu fikri Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan ölkənin İctimai televiziyasına müsahibəsində deyib. "Bu, heç kimə xoş deyil, lakin elə an gələcək ki, başqa seçim olmayacaq", - Ter-Petrosyan bildirib. Onun sözlərinə görə, əgər Bakı və Ankara ilə problemlər həll olunmasa, tezliklə Ermənistan dövlətçiliyinin mövcudluğu təhlükə altına düşəcək.

Həftənin ETİRAZI

Almaniyanın "Bayer" klubunun iranlı hücumçusu Sərdar Azmun ölkəsində baş verən kütləvi etirazlara münasibət bildirib. Azmun, sosial şəbəkə hesabında baş verənlərə görə artıq susa bilmədiyini yazıb: "Federasiyanın qaydalarına görə, təlim-məşq toplanışı başa çatana qədər heç nə deməməliyəm, amma daha susa bilmirəm. Məni yığmadan qovacaqlarsa, qovsunlar. Bu fədakarlıq iranlı qadının saçının bir tükünə belə, dəyməz. İnsanları belə asanlıqla öldürənlərin başçılarına ayıb olsun! İran qadınları əbədi sevgiyə layiqdir".

Həftənin FƏRARİSİ

Rusiyada qismən səfərbərlik xəbərləri fonunda Özbəkistana gedən 39 yaşlı rusiyalı reper Timati Moskvaya qayıdıb. O, ölkədən qaçması ilə bağlı iddialara cavab verib.

"Mən Moskvadayam. Evdəyəm. Heç yerə mühacirət etmək fikrim yox idi və planlaşdırmıram, mənim yerim buradadır", - Timati instaqramda yazıb. O bildirib ki, lazım olduğu təqdirdə müharibəyə yollanmağa hazırdır.

✍ ***Azad Əliyev***

Milyoner 10 milyonluq tarixi əsəri yandırmaqda ittiham olunur

Amerikalı milyonçu Martin Mobarak Frida Kahlonun "Fantasmones Siniestros" rəsminin orijinalını yandırmaqda şübhəli bilinir, Hafta.az NY Post-a istinadla bildirir.

İyul ayında şübhəli şəxs sosial şəbəkədə qonaqların iştirakı ilə Kahlonun bir stəkan spirtdə çəkdiyi rəsmə od vurduğu bir video yayımlayıb. Beləliklə, Mobarak rəsmin rəqəmsal unikal NFT nüsxələrinin satışını stimullaşdırmaq istəyib. "Ümid edirəm ki, burada hər kəs bu jesti başa düşə və onda müsbət bir şey görə bilər" deyib Mobarak. Sahibkar NFT layihəsinin bir hissəsi olaraq rəsmin 10.000 unikal nüsxəsini satmağı planlaşdırıb. Mobarak, beləliklə alınan vəsaitin xeyriyyəçilik işlərinə və mədəniyyət qurumlarına, xüsusən də Meksikanın Koyoakan şəhərindəki Frida Kahlo Ev Muzeyinə dəstək üçün gedəcəyini iddia edib. İndi hüquq-mühafizə orqanları işi yoxlayır.

TikTok-da qazax qadınları ruslara saxta nikah təklif edirlər

Qazaxıstan TikTok-da qadınların tez bir zamanda vətəndaşlıq əldə etmək üçün səfərbərlikdən qaçan ruslara pul müqabilində evlənməyi təklif etdiyi videoları görünməyə başlayıb.

Hafta.az bildirir ki, bu barədə iGustal Telegram kanalı məlumat yayıb. Təsdiq olaraq, kanalın müəllifi posta müxtəlif videolardan üç skrinşot əlavə edib. Onlar qadınları və uydurma evlilik təklifləri olan yazıları göstərirlər. "Siz artıq Qazaxıstana gəldiyiniz üçün mən 1 milyon rubl qarşılığında uydurma nikaha girməyə hazıram. Üstəlik, bonus olaraq qeydiyyatdan keçin "deyə ekran görüntülərindən birində yazı var.

Digər ikisi oxşar təklifləri göstərir, lakin fərqli qiymətlərlə. Belə ki, bir TikTok istifadəçisi 100.000 dollara, digəri isə cəmi 200.000 rubla rahat evlilik təklif edir.

GÜNÜN FOTOSU

Nyu-Yorkda iranlı qadınların etiraz aksiyası

Nüvə təhlükəsi - bizi təhdid edirmi?

Elman Yusifov,
"Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq, dosent

Bu, tək ölkəmizdə deyil, bütün bəşəriyyətdə böyük faciə yarada bilər.

▸▸ Səh. 7

STATİSTİKA

■ **2021-ci ildə 15-29 yaşda olan gənc qadınlar tərəfindən diri doğulan uşaqların sayı açıqlanıb.**

Ötən il 15-29 yaşda olan qadınlar tərəfindən diri doğulan uşaqların sayı 81 623 olub.

15-19 yaşda qadınların dünyaya gətirdiyi uşaqların sayı 9 476, 20-24 yaşda 35 436, 25-29 yaşda 36 711 olub. 15-19 yaşda qadınlar tərəfindən doğulan uşaqların 7 504-ü birinci, 1886-sı ikinci, 80-i üçüncü, 5-i dördüncü, 1-i beşinci uşaqdır.

▸▸ Səh. 6

Pensiyalar artırılacaq